29 aprel 2022 №32 (1905) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına ABŞ da töhfə vermək istəyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də ABŞ dövlət katibi köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə ABŞ Dövlət Departamentinin Qafqaz bölgəsi danışıqları üzrə ali müşaviri Endryu Şofer, ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger, Gürcüstandakı səfiri Kelli Deqnan və Ermənistandakı səfiri Linn Treysi daxildir.

Görüşdə regional məsələlər barədə fikir mübadiləsi aparılıb, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin hazırlanması üçün danışıqların aparılması, kommunikasiyaların açılması məsələləri müzakirə edilib. Prezident İlham Əliyev bildirib ki, sülh müqaviləsi ilə bağlı danışıqların başlanılması üzrə Azərbaycan nümayəndə heyəti hazırdır.

Dövlətimizin başçısı 30 ilə yaxın davam edən işğal dövründə Ermənistanın ərazilərimizdə törətdiyi dağıntıları, maddi-mədəniyyət abidələrimizin, 60-dan çox məscidin dağıdıldığını bildirib. İşğal dövründə ərazilərimizdə Ermənistan tərəfindən çox sayda minaların basdırıldığını deyən İlham Əliyev hazırda Azərbaycanın üzləşdiyi mina problemini vurğulayıb, bu xüsusda ABŞ-ın dəstəyinin əhəmiyyəti qeyd edilib.

Söhbət zamanı Birinci Qarabağ müharibəsində 4 mindən çox soydaşımızın itkin düşmüş hesab olunduğu, onların bir çoxunun işgəncələrə məruz qaldığı və öldürülərək Ermənistan tərəfindən kütləvi məzarlıqlarda basdırıldığı da diqqətə çatdırılıb. Həmin məzarlıqların yerləri haqqında Ermənistan tərəfindən məlumatın verilməsinin vacibliyini vurğulayan dövlət başçısı bununla əlaqədar ABŞ hökumətinin dəstəyinin zəruriliyini qeyd edib.

## Rəqs sənəti səhnəsinə yeni istedadlar gəlir

### Bakı Xoreoqrafiya Akademiyası orta ixtisas təhsil pilləsinin buraxılış-hesabat konserti



29 aprel Beynəlxalq Rəqs Günüdür. 1982-ci ildə UNESCO nəzdində Beynəlxalq Rəqs Şurası tərəfindən təsis edilən əlamətdar gün ölkəmizdə də hər il müxtəlif tədbirlər, konsert proqramları, təqdimatlarla qeyd olunur. Azərbaycan rəqs sənətinin yaşadılmasına və inkişafına mühüm töhfələr verən, bu sahə üzrə ixtisaslı kadrların hazırlanmasını həyata keçirən Bakı Xoreoqrafiya Akademiyasının (BXA) orta ixtisas təhsil pilləsinin builki buraxılış-hesabat konserti də Beynəlxalq Rəqs Günü ərəfəsində, aprelin 27-də keçirilib.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında keçirilən tədbirdə mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, ölkəmizin Rusiyadakı səfiri, Xalq artisti Polad Bülbüloğlu, Xalq artisti, milli rəqs sənətinin görkəmli nümayəndəsi Roza Cəlilova, mədəniyyət və ictimaiyyət nümayəndələri, sənətsevərlər iştirak ediblər.

BXA-nın orta ixtisas təhsil pilləsinin şagirdləri, klassik və xalq bölməsinin məzunları akademiyanın müəllimləri – Xalq artistləri Cəmilə Bayramova, Yusif Qasımov, Əməkdar müəllim Pellumb Aqalliyay, Əməkdar artistlər Rimma İskəndərova, Səbinə Qasımova, Viktoriya Şahmuradova, Əməkdar mədəniyyət işçisi Lyudmila Qutlyanskaya, eləcə də Zaur Fətulla, Tuncay Hüseynov və Yelena Çernousovanın rəhbərliyi ilə hazırladıqları rəqs nömrələrini, eləcə də "Jizel", "Yatmış gözəl", "Sonalar gölü", "Don Kixot" və başqa məşhur baletlərdən parçaları ifa ediblər.

Konsertdə eləcə də BXA-nın yetirmələri olmuş Əməkdar artist Samir Səmədov, Opera və Balet Teatrının solisti Timur Oduşev və başqaları da çıxış ediblər.

BXA-da rektor vəzifəsini müvəqqəti icra edən, Əməkdar artist Nailə Məmmədzadənin bədii rəhbəri olduğu konsert alqışlarla qarşılanıb. Tədris illərində rəqs sənətinin sirlərini mənimsəyən istedadları qarşıda hələ çox konsert proqramları, anşlaqlar, tamaşaçı alqışları gözləyir.

## Böyük ədəbiyyatşünasın ilk qələm təcrübəsi



Aprelin 27-də Milli Kitabxanada XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Mir Cəlal Paşayevin ilk ədəbi-tənqidi qələm təcrübəsi olan "Ədəbiyyatda romantizm" əsərinin 4 dildə ilk nəşrinin təqdimat mərasimi keçirilib.

Tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq aprelin 26-da görkəmli ədəbiyyatşünas alim Mir Cəlal Paşayevin anadan olmasının 114-cü ildönümünün tamam olduğunu diqqətə çatdırıb. Bildirib ki, "Milli Kitabxananın qızıl fondundan" seriyasından nəşr olunan əsəri Mir Cəlal Paşayev 1928-ci ildə qələmə alıb. İlk ədəbi-tənqidi təcrübəsi olan "Ədəbiyyatda romantizm" əsəri XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatşünaslığında "ədəbiyyat hadisəsi" kimi qiymətləndirilə bilər: "20 yaşlı bir gəncin belə bir dərin məzmunlu əsər yazması ədəbiyyatımızda böyük hadisədir. Lakin bu əsərin Azərbaycan arxivlərindən və kitabxanalarından "səssizcə yoxa çıxarılması" nəticəsində bu qiymətli ədəbi-tənqidi əsər bir əsr ərzində elmi-ədəbi dövriyyədən kənarda qalmışdır. Bir əsr ərzində Mir Cəlalın müəllifi olduğu çoxsaylı kitabları nəşr edilib, lakin çox təəssüf ki, bu əsər indiyə kimi çap olunmamışdı".

davamı səh. 3-də

## Yazıçı Vidadi Babanlıya "Şərəf" ordeni təqdim edilib

Mədəniyyət naziri Anar Kərimov aprelin 28-də Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, tanınmış yazıçı Vidadi Babanlını evində ziyarət edib.

Nazir Vidadi Babanlıya 95 illik yubileyi, həmçinin Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə dövlət başçısının müvafiq sərəncamına əsasən "Şərəf" ordeni ilə təltif olunması münasibətilə təbriklərini çatdırıb, ordeni yazıçıya təqdim edib.

səh. 2

## Xivə şəhərində keçirilən festivalda rəqs və muğamlarımız təqdim olunub

26-30 aprel tarixində Özbəkistanın Xivə şəhərində beynəlxalq "Ləzgi" rəqs festivalı keçirilir. 2019-cu ildə Özbəkistanın təqdim etdiyi "Ləzgi" Xarəzm rəqsi nominasiyası UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Xivə şəhərindəki məşhur "İçan-kala" kompleksinin Köhnə Ark meydanında keçirilən festival da UNESCO-nun dəstəyi ilə təşkil edilib.




30 ölkədən 200-ə yaxın rəqqas, musiqiçi, musiqi nəzəriyyəçisi və xoreoqrafın qatıldığı festivalda Azərbaycanı Fikrət Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblı təmsil edir. Əməkdar artist, tarzən Sahib Paşazadənin rəhbərliyi ilə "Muğam" musiqi qrupu da festivala qonaq kimi dəvət olunub.

Dövlət Mahnı və Rəqs Ansamblı üzvlərinin aprelin 27-də və aprelin 28-də keçirilən konsertlərdə çıxışları alqışlarla qarşılanıb. Konsertdə İranın Təbriz şəhərindən gələn oğlanlardan ibarət rəqs qrupu "Qaytağı" rəqsini ifa edib.

Festivalın açılış konsertində Əməkdar artist Sahib Paşazadənin rəhbərliyi ilə "Muğam" musiqi qrupu da çıxış edib. Tarda Sahib Paşazadə, kamançada Toğrul Əsədullayev və nağarada Kamran Kərimovun müşayiəti ilə xanəndələr Mirələm Mirələmov və Kamilə Nəbiyevanın ifasında muğam və xalq mahnıları alqışlarla qarşılanıb.

Festival çərçivəsində rəqs sənətinə həsr olunan sərgilər, milli geyimlərin, xalq tətbiqi sənət nümunələrinin nümayişi, kitab yarmarkası, "Dünya rəqs sənətinin inkişafında özbək milli rəqslərinin rolu" adlı beynəlxalq konfrans da təşkil edilib.

## Xalq rəssamının "Şuşanın görkəmli musiqi xadimləri" sərgisi



Aprelin 28-də Azərbaycan Rəssamlar İttifaqı və Bakı Slavyan Universitetinin birgə təşkilatçılığı ilə Xalq rəssamı Arif Hüseynovun əsərlərindən ibarət "Şuşanın görkəmli musiqi xadimləri" adlı sərgi açılıb.

Tədbirdə Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva və digər çıxış edənlər sərgi ilə bağlı fikirlərini bölüşüb, uğurlu layihə münasibətilə rəssamı təbrik ediblər.

Bildirilib ki, belə bir rəsm sərgisi ali məktəbdə ilk dəfə açılır. Sərgidə nümayiş olunan əsərlərdə Şuşanın musiqi mədəniyyəti korifeylərinin portretləri əks edilib. Tarixi mötəbərlik Arif Hüseynovun yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir.

## Paytaxtımızda əsl təbiət zövqü

Şəhərləri parksız təsəvvür etmək mümkün deyil. Böyüklərin dincəlmək, uşaqların əylənmək üçün üz tutduqları belə məkanlar həm də şəhərlilərin, kiçik də olsa, canlı təbiətlə ünsiyyəti üçün qiymətlidir. Onsuz da təmiz, oksigenlə bol hava çatışmazlığı meqapolislərin ən böyük problemlərindədir...



Parkların əhəmiyyətini diqqətə çatdırmaq və nadir təbiət landşaftlarını qorumaq məqsədilə hər il "Parklara yürüş günləri" aksiyası keçirilir. Bu aksiya ilk dəfə 1990-cı ildə ABŞ-ın Milli Parklar və Təbiəti Mühafizə Assosiasiyasının təşəbbüsü ilə reallaşıb. 22 aprel isə dünyada Yer Günü (Earth Day) kimi qeyd olunur. İlk dəfə 1970-ci ildə ABŞ-da qeyd edilən bu tarix 2009-cu ildə BMT Baş Assambleyası tərəfindən beynəlxalq gün kimi təsdiq olunub. Bundan sonra "Parklara yürüş günləri" aksiyası daha geniş vüsət alıb.

Ölkəmizdə də əhalinin istirahətinin təmin olunması məqsədilə park sahələrinin genişləndirilməsi diqqətdə saxlanılır, paytaxtda və bölgələrdə yeni məkanlar istifadəyə verilir, mövcud parklar yenidən qurulur. Bakıda ən böyük belə məkanlardan biri ötən ilin sonunda yenidənqurma işlərindən sonra istifadəyə verilən Nizami Gəncəvi adına mədəniyyət və istirahət parkıdır.

"Parklara yürüş günləri" ərəfəsində fotoqrafımızla dahi şairin adını daşıyan məkanı ziyarət edərək yaradılan şəraitlə yaxından tanış olduq.

davamı səh. 8-də

### "Mədəni yenilənmə"də növbəti görüş



səh. 3

### Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Rumıniya ilə də əməkdaşlıq qurur

səh. 2



### Qəribə, görünməmiş inci, bir də "Orfey və Evridika"

səh. 5

№32 (1905)
29 aprel 2022
www.medeniyyet.az

# Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verilib

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verilib. Azərbaycan Respublikası Nazirlər Kabineti bununla bağlı qərar qəbul edib.

Baş nazir Əli Əsədovun imzaladığı 26 aprel 2022-ci il tarixli qərar "Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 529 nömrəli Fərmanının müvafiq bəndinə əsasən qəbul edilib.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrına "milli" statusu verilməsi haqqında qərardan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Yazıçı Vidadi Babanlıya "Şərəf" ordeni təqdim edilib



Mədəniyyət naziri Anar Kərimov aprelin 28-də Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü, tanınmış yazıçı Vidadi Babanlının evində ziyarət edib.

Nazir Vidadi Babanlını 95 illik yubileyi, həmçinin Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə dövlət başçısının müvafiq sərəncamına əsasən "Şərəf" ordeni ilə təltif olunması münasibətilə təbrik edib. Yazıçının Azərbaycan ədəbiyyatına töhfələrinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini vurğulayan Anar Kərimov "Şərəf" ordenini ona təqdim edib.

Vidadi Babanlı ona göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Sonda nazir Anar Kərimov Vidadi Babanlı ilə xatirə şəkli çəkdirib.

Vidadi Yusif oğlu Babanlı 1927-ci il yanvarın 5-də Qazax rayonunun Şıxlı (indiki Muğanlı) kəndində doğulub. Yazıçı "Vicdan susanda", "Ana intiqamı", "Ömürlük cəza", "Gəlin", "İnsaf nənə", "Müqəddəs ocaq" və s. geniş oxucu kütləsinin rəğbətini doğuran əsərlərin müəllifidir.

Prezident İlham Əliyev yanvarın 8-də Vidadi Babanlını "Şərəf" ordeni ilə təltif edib.

# Alla Bayramova Mədəniyyət Nazirliyinin fəxri fərmanı ilə təltif olunub



Aprelin 28-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, sənətşünas Alla Bayramovanın 65 yaşı tamam olub.

Bu münasibətlə Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva yubilyarla görüşüb.

Nazir müavini Alla Bayramovanı doğum günü münasibətilə təbrik edərək onun muzey işi və musiqi mədəniyyəti sahəsində xüsusi xidmətlərini qeyd edib və ən xoş arzularını çatdırıb.

Sevda Məmmədəliyeva 65 illik yubileyi, həmçinin uzunmüddətli və səmərəli iş fəaliyyəti ilə əlaqədar Mədəniyyət Nazirliyinin fəxri fərmanını Alla Bayramovaya təqdim edib.

# "Qəlblərin harmoniyası" – rəqs festivalı keçirilib

29 aprel – Beynəlxalq Rəqs Günü münasibətilə "Uşaq və Yeniyetmələrə Dəstək" İctimai Birliyi tərəfindən Bakı Gənclər Mərkəzində (paytaxtın Sabunçu rayonu) "Qəlblərin harmoniyası" adlı Azərbaycan və dünya rəqsləri festivalı keçirilib.




Festivala ölkədə fəaliyyət göstərən uşaq və gənclərdən ibarət rəqs kollektivləri qatılıb. Onların təqdim etdikləri rəqs kompozisiyaları münsiflər – Xalq artistləri Eldar Mansurov və Cəmilə Bayramova, Əməkdar artist Etibar Zeynalov, Mədəniyyət Nazirliyinin nümayəndəsi Kənan Tağızadə və ritm ifaçısı Cəfər Həsənov, eləcə də rəqqasə-pedaqoq Səbinə İsmayılova tərəfindən qiymətləndirilib.

Birliyin sədri Fərhad Abdulov bildirib ki, rəqs sənəti mədəni-sosial müxtəlifliyə baxmayaraq, insanlar arasında emosional özünüifadə forması kimi harmoniya yaradır. Festivalın təşkilində əsas məqsəd bunu diqqətə çatdırmaqla yanaşı, uşaq və gənclərin yaradıcı potensialının üzə çıxarılması və stimullaşdırılmasıdır.

# Görkəmli alimin xatirəsinə ehtiramın ifadəsi

## "Zərifə Əliyeva" gəmi-bərəsi istismara verilib




Aprelin 28-də Azərbaycan tibb elmində silinməz izlər qoymuş oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın (1923-1985) anadan olmasının 99-cu ildönümü tamam oldu. Zərifə Əliyeva həkimlik fəaliyyəti dövründə neçə-neçə insana gözünün itmiş nurunu yenidən qaytarıb, onların qaranlıq dünyasını işıqlandırıb. Görkəmli alimin adı bu gün Azərbaycanda fəxr hissi ilə səslənir, ana adının ucalığı, ömür-gün yoldaşının sədaqəti, həkimliyin müqəddəsliyi onun adı ilə əbədiləşir, əziz xatirəsi ehtiramla yad edilir.

Akademik Zərifə Əliyevanın xatirəsi əbədiləşdirilib, kitablarda, təsviri sənət və musiqi əsərlərində yaşayır. Görkəmli alimin adını bundan sonra Xəzərin sularında üzəcək və ölkəmizin iqtisadi inkişafına töhfələr verəcək gəmi-bərə yaşadacaq...

Prezident İlham Əliyev aprelin 28-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan "Ro-Pax" tipli "Zərifə Əliyeva" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak edib.

Gəmi-bərə barədə dövlət başçısına məlumat verilib. Bildirilib ki, gəmi-bərənin layihəsi ötən ilin əvvəlində istismara verilən "Ro-Pax" tipli "Azərbaycan" gəmi-bərəsi ilə eynidir. Otuz nəfərlik heyət üzvünün idarə etdiyi gəmi-bərə ilə eyni vaxtda 100 sərnişin, sistern tipli 56 vaqon və ya 50 yük avtomobili/TIR daşımaq mümkündür. "Azərbaycan" və "Zərifə Əliyeva" gəmi-bərələri bu göstəricilərinə görə Xəzər hövzəsində istismar olunan digər gəmi-bərələrdən daha üstündür. Dünyanın aparıcı istehsalçılarının müasir avadanlıqları ilə təchiz olunan gəmidə yük lifti, helikopter meydançası, dalğalı havada gəminin sabitləşdirilməsi sistemi, dartıcı lokomotivlər var.

Prezident İlham Əliyev gəmi-bərənin istismara verilməsini bildirən rəmzi lenti kəsib.

Xatırladaq ki, ötən ilin martında Suveyş kanalının bağlanması nəqliyyat dəhlizlərinin şaxələndirilməsi məsələsini beynəlxalq gündəlikdə önə çıxarmışdı. Hazırkı geosiyasi təlatümlər fonunda isə bu məsələ aktuallığını xüsusilə artırıb. Buna görə də Şərq-Qərb-Transxəzər dəhlizi xüsusilə cəlbedici görünür və Azərbaycan da yeni çağırışlara adekvat olaraq infrastrukturunu yaxşılaşdırır.

Gəmi-bərənin "Zərifə Əliyeva" adlandırılması Azərbaycan dənizçilərinin görkəmli alim və həkim, tibb elmləri doktoru, akademik Zərifə Əliyevanın xatirəsinə olan sonsuz ehtiramının ifadəsidir. Gəmi-bərədə akademik Zərifə Əliyevanın elmi axtarışlarını, qazandığı uğurları, insanlara xeyirxah münasibətini, bir sözlə, fədakarlıqla dolu həyat və fəaliyyətini əks etdirən guşə yaradılıb. Guşədə akademik M.İ.Averbax adına mükafatın ilk qadın laureatı olan Zərifə Əliyeva haqqında foto və video məlumatlar, kitablar toplanıb.

Gəmi-bərə ilə tanış olan Prezident İlham Əliyev daha sonra onun işə salınmasını bildirən düyməni basıb.

"Zərifə Əliyeva" gəmi-bərəsi Transxəzər beynəlxalq nəqliyyat marşrutu üzrə yükdaşıma zəncirinin mühüm həlqəsi olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin digər bərələri ilə birgə yükdaşımalara, eləcə də əlverişli coğrafi mövqeyə malik ölkəmizin tranzit potensialının reallaşdırılmasına töhfə verəcək.

# Qeyri-səlis məntiq nəzəriyyəsi və absurd teatr

## Xalq yazıçısı Elçinin dramaturgiyası haqqında kitabın təqdimatı

Aprelin 28-də Milli Kitabxanada sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyevin müəllifi olduğu "Elçin teatrı: Absurd dram "Qeyri-səlis məntiq" nəzəriyyəsi kontekstində" kitabının təqdimatı keçirilib.

Tədbiri kitabxananın direktoru Kərim Tahirov açaraq kitab haqqında məlumat verib. Bildirib ki, kitabda böyük alim Lütfi Zadənin "Qeyri-səlis məntiq" nəzəriyyəsi işığında Xalq yazıçısı Elçin dramaturgiyasının süjet situasiyalarının "qrammatikası" açıqlanır, absurd pyeslərinin paradoksal məntiqi müəyyən edilir. Kitabxananın direktoru vurğulayıb ki, əgər XX əsr Azərbaycan teatr sənətinin inkişafında İlyas Əfəndiyevin əsərləri əsas rol oynayırdısa, həmin ənənəni çox uğurla Elçin müəllim davam etdirir.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin professoru Rüstəm Kamal çıxış edərək bildirib ki, Azərbaycan teatrının poetikası özü böyük mövzudur. Hər bir xalqın həyatında teatrın yaranıb inkişaf etməsi maraqlı hadisədir. Teatr poetik fundamental araşdırmalar tələb edən bir sahədir. R.Kamal qeyd edib ki, daha çox texnoloji proseslərə tətbiq olunan qeyri-səlis məntiq nəzəriyyəsinin ədəbiyyata tətbiqi bu işin əsas uğuru sayıla bilər. O vurğulayıb ki, absurdluq özü fəlsəfi bir mövzudur və biz bunu Mirzə Cəlilin, Üzeyir bəyin əsərlərində görə bilərik. Müasir dövrümüzdə isə bu ənənəni Elçin müəllim çox mükəmməl şəkildə inkişaf etdirərək öz əsərlərinə tətbiq edib.



İftixar Piriyevi belə maraqlı bir mövzuda əsər yazması münasibətilə təbrik edən R.Kamal ona yaradıcılıq uğurları arzulayıb.

"Zadə irsi və süni intellekt" Assosiasiyasının prezidenti, AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyev qeyri-səlis məntiq nəzəriyyəsinin yaranma tarixindən, əsas müddəalarından danışıb. Qeyd edib ki, bu nəzəriyyənin əsas qayəsi sərhədlərin pozulmasıdır. Rafiq Əliyev vurğulayıb ki, kitabı maraqlı edən əsas cəhət odur ki, konkret predmetə əsaslanır.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva bildirib ki, qeyri-səlis məntiq nəzəriyyəsi haqqında ilk dəfə Xudu Məmmədovun kitablarında, sonra isə məhz bu nəzəriyyənin banisi Lütfi Zadənin əsərlərində tanış olub. Lütfi Zadə ilə tanışlığından danışan millət vəkili qeyd edib ki, bu görüşün keçirilməsində Rafiq Əliyevin rolu böyükdür.

Xalq yazıçısı Elçinin Azərbaycan teatrının inkişafında xüsusi yerini vurğulayan komitə sədri ədibin yaradıcılığı kontekstində belə bir mövzuya toxunduğu üçün İftixar Piriyevə təşəkkürünü, həmçinin bu əsərin yazılmasına yaxından kömək edən Rafiq Əliyevə minnətdarlığını bildirib.

AMEA Folklor İnstitutunun direktoru Muxtar İmanov, Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu, teatr rejissorları – Xalq artisti Firudin Məhərrəmov, Əməkdar incəsənət xadimi Bəhram Osmanov, Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid və digər çıxış edənlər, eləcə də müəllif İftixar Piriyev monoqrafiya haqqında fikirlərini bölüşüblər.

Sonda Xalq yazıçısı Elçin kitabın müəllifi İftixar Piriyevə və çıxış edən hər kəsə öz təşəkkürünü bildirib. Qeyd edib ki, İftixar Piriyev həm rejissor, aktyor, həm də teatrşünasdır. Xalq yazıçısı absurd teatrı haqqında da fikirlərini bölüşüb. Vurğulayıb ki, bu gün teatrımızın əsl teatrşünaslara ehtiyacı var.

# Şuşada beynəlxalq forum

## Cənubi Qafqazda inkişaf və əməkdaşlıq



Aprelin 28-də Şuşa şəhərində Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və ADA Universitetinin təşkilatçılığı ilə "Cənubi Qafqaz: inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq forum işə başlayıb.

Foruma dünyanın 20-dən çox ölkəsindən 50-yə yaxın xarici beyin mərkəzinin ekspertləri, tədqiqatçı-alimlər və media nümayəndələri qatılıb.

Forum iştirakçıları əvvəlcə təyyarə ilə Qarabağın hava qapısına – Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Aeroportla yaxından tanış olduqdan sonra Füzuli rayonu ərazisində minaların zərərsizləşdirilməsi prosesini izləyiblər.

Sonra qonaqlar Zəfər yolu ilə Şuşaya səfər ediblər.

Şuşa forumunun əsas məqsədi postmünaqişə dövründə Cənubi Qafqaz ölkələri arasında əlaqələrin inkişafı, kommunikasiyaların açılması imkanlarının nəzərdən keçirilməsi, bölgənin tərəqqisinin, təhlükəsizliyinin və rifahının təməli kimi Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması üçün formalaşdırdığı sülh gündəliyinin müzakirəsidir.

Forumun birinci günü "Şuşa – dirçəlişə gedən yol" və "Əməkdaşlıq, imkanlar və çağırışlar" adlı panel müzakirələri keçirilib.

Aprelin 29-da isə forum ADA Universitetində "Mina təhlükəsi və məcburi köçkünlərin geri qaytarılması ilə bağlı qarşıya çıxan problemlər" mövzusunda müzakirələrlə davam edəcək.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Rumıniya ilə də əməkdaşlıq qurur

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Rumıniya Parlamentinin bir qrup deputatı və Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare ilə görüşüb.



Fondun fəaliyyəti barədə məlumat verən G.Əfəndiyeva türk xalqlarının maddi-mədəni dəyərlərinin beynəlxalq aləmdə təbliği məqsədilə dünyanın müxtəlif ölkələrində həyata keçirdikləri tədbirlərdən, tarixi irs və mədəniyyətlə bağlı yayımladıqları nəşrlərin əhəmiyyətindən bəhs edib.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun bir sıra Avropa ölkələri ilə də mədəni əlaqələrini genişləndirdiyini vurğulayan G.Əfəndiyeva ötən il Litva Respublikası ilə təşkilat arasında türk kökənli tatar və karaimlərin mədəni irsinin qorunması və təbliği ilə bağlı əməkdaşlıq memorandumunun imzalandığını deyib. O, ötən ilin sonunda Polşaya səfəri zamanı ölkənin baş müftisi, eləcə də orada yaşayan tatar icmasının nümayəndələri ilə görüşdüyünü qeyd edərək həmçinin Rumıniyada yaşayan tatarların mədəniyyətinin, tarixi irsinin də Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu üçün əhəmiyyət kəsb etdiyini qeyd edib.

Rumıniya Parlamentinin tatar kökənli deputatı Varol Amet Azərbaycana işgüzar səfəri çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu ziyarət etməkdən, bu təşkilatın fəaliyyəti ilə yaxından tanış olmaqdan məmnunluq duyduğunu deyib. O, Rumıniyada təmsil etdiyi tatarların etnik və mədəni hüquqlarından danışaraq ölkənin bir sıra orta məktəblərində tatar dilinin tədris edildiyini, onların dini və mədəni bayramlarının ölkə səviyyəsində qeyd olunduğunu vurğulayıb.

Rumıniyanın Azərbaycandakı səfiri Vasile Soare də Fondun fəaliyyətini yüksək qiymətləndirib. Səfir bildirib ki, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun tatarlarla bağlı birgə mədəni layihələrinin reallaşdırılması üçün Rumıniya tərəfi lazımi dəstəyi göstərəcək.

əvvəli səh. 1-də

# Böyük ədəbiyyatşünasın ilk qələm təcrübəsi

## Mir Cəlal Paşayevin "Ədəbiyyatda romantizm" əsəri 4 dildə nəşr olunub

Direktor bildirib ki, 2018-ci ildə Milli Kitabxana Mir Cəlalın ədəbi-tənqidi məqalələrindən ibarət toplu nəşr etdirib: "Biz həmin vaxt çoxsaylı arxivlərə müraciət etsək də, həmin əsəri tapa bilmədik. Yalnız iki il öncə Rusiya Dövlət Kitabxanasında həmin əsəri çox çətinliklə əldə etdik və geniş ictimaiyyətə çatdırmaq üçün dörd dildə – Azərbaycan, rus, ingilis və ərəb dillərində ilk dəfə kitab halında çap olunmasını zəruri hesab etdik".

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirib ki, "Milli Kitabxananın qızıl fondundan" layihəsi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, öz bədii və elmi-publisistik əsərləri ilə ədəbiyyat tariximizdə xüsusi yeri olan professor Mir Cəlal Paşayevin "Ədəbiyyatda romantizm" əsəri ilə açılır. Sevindirici haldır ki, Mir Cəlalın ad günü ərəfəsində bu əsər 4 dildə nəşr olunub. Mir Cəlal Paşayevin XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafındakı xidmətləri misilsizdir. Onun qələmə aldığı əsərlər bütünlükdə cəmiyyət üçün çox əhəmiyyətlidir.

Anar Kərimov qeyd edib ki, bu bir başlanğıcdır, bundan sonra da ədəbiyyatımıza bəlli olmayan yeni əsərlərin də müəyyən edilərək geniş ictimaiyyətə çatdırılması üçün işlər görüləcək.



Romantizm nəzəriyyəsinin ədəbiyyatşünaslığın bir qolu olduğunu bildirən Xalq yazıçısı Elçin vurğulayıb ki, 20 yaşında gənc kənd müəlliminin belə bir əsər yazması onun böyük gələcəyindən xəbər verirdi. Mir Cəlal birbaşa ədəbiyyata, ədəbiyyatşünaslığa xidmət edən böyük ədibdir: "Bu gün biz Nizami, Füzuli, M.Ə.Sabir, Mirzə Cəlil kimi görkəmli yazarlarımızdan danışanda Mir Cəlal müəllimin xidmətləri yada düşür. Sovet dönəmində çox istedadlı yazarlarımızın olmasına baxmayaraq, mövzu baxımından onların əsərləri bu günümüzlə səsləşmir. Lakin Mir Cəlalın əsərlərinin mövzusu daim aktualdır. Fəxr edirəm ki, Azərbaycan ədəbiyyatında belə ədiblər yetişib".

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin üzvü, akademik Nizami Cəfərov çıxış edərək bu işdə əməyi keçən hər kəsə təşəkkürünü bildirib. O vurğulayıb ki, Mir Cəlalın əsərinin təxminən bir əsrdən sonra digər ölkələrin arxivlərindən tapılaraq Azərbaycana gətirilməsi və onun 4 dildə nəşr olunaraq mütəxəssislərə və oxuculara çatdırılması çox təqdirəlayiq bir addımdır.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva çıxış edərək əvvəlcə kitab ocağına, Milli Kitabxanaya və Mədəniyyət Nazirliyinə belə bir layihəyə başladıqları üçün öz təşəkkürünü bildirib. Vurğulayıb ki, Mir Cəlal müəllimin əsərlərinin hamımızın həyatına bir təsiri olub. Bu gün təqdim olunan əsər sanki 1928-ci ildə deyil, müasir dövrümüzdə yazılıb. O, kitabın tərtibində əməyi keçən bütün kollektivə öz təşəkkürünü bildirib.

Təhsil nazirinin müavini Firudin Qurbanov, Prezident yanında Ali Attestasiya Komissiyasının şöbə müdiri, professor Asif Rüstəmli, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbi tənqid şöbəsinin müdiri, Əməkdar mədəniyyət işçisi Vaqif Yusifli və digər çıxış edənlər təqdimatı keçirilən nəşr və Mir Cəlalın yaradıcılığı ilə bağlı fikirlərini bölüşüblər.

Sonda qonaqlar Mir Cəlal Paşayevin həyat və yaradıcılığını əhatə edən kitab sərgisi ilə tanış olublar.

# "Tar sənətinin zirvəsində"

## Ramiz Quliyevin 75 illik yubileyinə həsr olunmuş konfrans



Ustad tarzən, pedaqoq, Dövlət mükafatı laureatı, Xalq artisti Ramiz Quliyev aprelin 30-da 75 yaşını qeyd edəcək. Bu il həmçinin sənətkarın yaradıcılıq fəaliyyətinin 55 ili tamam olur.

Aprelin 26-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) Ramiz Quliyevin hər iki yubileyinə həsr olunmuş elmi praktik konfrans keçirilib.

Konfransı BMA-nın rektoru, Azərbaycanın və SSRİ-nin Xalq artisti, professor Fərhad Bədəlbəyli açaraq yubilyarla birlikdə xarici ölkələrə qastrol səfərlərindən, yaddaqalan konsertlərdən bəhs edib. Qeyd edib ki, Ramiz Quliyevin ən yaddaqalan ifalarından biri Ağdamın Şelli kəndi istiqamətində əsgər kazarmasının önündəki çıxışı idi. Həmin konsert düşmənin atəş səslərinin altında keçmişdi. Buna baxmayaraq, Ramiz Quliyevin döyüşkən tarında səslənən "Mahur", "Segah", "Çahargah" düşmənin atəşini "susdurmuşdu".

BMA-nın elm və yaradıcılıq üzrə prorektoru, Əməkdar incəsənət xadimi, professor Gülnaz Abdullazadə çıxışında professor Ramiz Quliyevin elmi fəaliyyətindən, gənc ifaçıların yetişməsində böyük zəhmətindən söhbət açıb.

BMA-nın elmi tədqiqat laboratoriyasının müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nuridə İsmayılzadə, Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı, Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova, A.Zeynallı adına Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor Nazim Kazımov, Xalq artisti, Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru Sərdar Fərəcov da çıxış edərək yubilyar sənətkarla bağlı ürək sözlərini bölüşüblər.

Ramiz Quliyev çıxış edərək tədbirin iştirakçılarına və xoş sözlərə görə minnətdarlığını bildirib.

Qeyd edək ki, mayın 6-da Mədəniyyət Nazirliyinin dəstəyi ilə Beynəlxalq Muğam Mərkəzində Xalq artisti, Dövlət mükafatı laureatı Ramiz Quliyevin anadan olmasının 75 və elmi-pedaqoji fəaliyyətinin 55 illiyinə həsr olunmuş təntənəli gecə keçiriləcək. Tədbirdə görkəmli tarzənin xatirələrindən ibarət yeni kitabın təqdimatı və ona həsr olunmuş sənədli filmin nümayişi də nəzərdə tutulub.

# Niyazinin Mənzil-Muzeyində Fikrət Əmirov yad edildi

Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun 100 illiyi ölkəmizdə müxtəlif tədbirlərlə qeyd olunur. Növbəti yubiley tədbiri aprelin 27-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyində gerçəkləşdi.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası (BMA) ilə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin birgə təşkilatçılığı ilə keçirilən tədbiri muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq bəstəkarın həyat və fəaliyyətinə qısa nəzər saldı.



Bildirildi ki, F.Əmirovun zəngin yaradıcılığı çoxmillətli keçmiş ittifaqın hər yerində, dünyanın müxtəlif ölkələrində geniş tanınıb, böyük dinləyici kütləsinin məhəbbətini qazanıb. Görkəmli bəstəkarın dərin məzmunlu, yüksək fəlsəfi və psixoloji mahiyyətli əsərləri musiqi tariximizin parlaq səhifələrini təşkil edir.

BMA-nın dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Nərgiz Salmanlı bildirdi ki, Fikrət Əmirov musiqinin bir çox janrlarında əsərlər bəstələyib. Müəllifin "Sevil" operası, "Min bir gecə", "Nəsimi dastanı", "Nizami" baletləri, "Şur", "Kürd-ovşarı", "Gülüstan Bayatı-Şiraz" simfonik muğamları, "Nizami" simfoniyası, "Azərbaycan kapriççiosu", skripka və fortepiano üçün "Muğam-poema"sı, süitaları, instrumental konsertləri, mahnı və romansları, dram tamaşalarına və kinofilmlərə yazdığı musiqilər Azərbaycan mədəni irsinin qiymətli inciləridir.

N.Salmanlının çıxışı muzeyin zəngin materialları əsasında hazırlanmış bəstəkarın yaradıcılığını əks etdirən videoçarx ilə müşayiət olundu.

Abdulla Şaiqin Ev-Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Ülkər Talıbzadə çıxışında Fikrət Əmirovun əsərlərinin yüksək sənətkarlığından, dünya səhnələrini dolaşmasından danışıb. Ü.Talıbzadə daha sonra görkəmli bəstəkar Zülfüqar Hacıbəyovun Nizami Gəncəvinin "İskəndərnamə" poemasının motivləri əsasında yazdığı "Nüşabə" operası ilə bağlı söz açdı. Bildirdi ki, bir çox mənbələrdə əsərin natamam olduğu bildirilsə də, yeni sənədlər əsərin tamamlandığını deməyə əsas verir.

Çıxışlardan sonra bədii hissəyə keçildi. BMA-nın professoru, Xalq artisti Ülviyyə Hacıbəyova ilk dəfə olaraq Z.Hacıbəyovun "Nüşabə" operasından musiqi nömrələrini təqdim etdi. BMA-nın professoru, Xalq artisti Gülnaz İsmayılova, təhsil ocağının dosenti Nərgiz Salmanlı, beynəlxalq müsabiqələr laureatları Məryəm Yusifova və Səbinə Quliyeva, eləcə də akademiyanın tələbələri Emin İsmayılov, Ofeliya Dadaşova, Məryəm Məmmədova, Natəvan Səlimova və Rasimə Abdullayevanın ifalarında Fikrət Əmirovla yanaşı digər Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təqdim edildi. Çıxışlar alqışlarla qarşılandı.

Xalq artisti Gülnaz İsmayılova müəllifi olduğu "Azərbaycan bəstəkarlarının opera, müzikl və musiqili komediyalarından soprano üçün seçilmiş ariyaları" kitabını mənzil-muzeyə bağışladı.

**Savalan Fərəcov**

# "Qarabağ Zəfəri – 44 günün pərdəarxası" kitabının təqdimatı

Aprelin 26-da Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri, professor Aygün Attarın "Qarabağ Zəfəri – 44 günün pərdəarxası" kitabının təqdimatı keçirilib.




Kitab münaqişənin yaranma səbəblərinin geosiyasi kontekstdə araşdırılması ilə yanaşı, Qarabağ Zəfərinə aparan yolu, qardaş Türkiyənin Azərbaycana böyük siyasi və mənəvi dəstəyini, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun müharibədə qazandığı tarixi Qələbəni xronoloji ardıcıllıqla əks etdirir.

Tədbirdə kitabxananın direktoru Aslan Cəfərov, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmli, Azərbaycan Yazıçılar Birliyinin şöbə müdiri Sayman Aruz və başqa çıxış edənlər professor Aygün Attarın elmi-pedaqoji və ictimai fəaliyyəti, kitabın məziyyətləri barədə söz açıblar.

Müəllif Aygün Attar belə bir görüşün təşkil olunmasına görə kitabxana rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin mətbəəsində çap olunan kitabın türk dilindən tərcümə müəllifləri Nəriman Əbdülrəhmanlı, Kəmalə Ələkbərova, Rəbiqə Zeynalova, redaktoru Etimad Başkeçiddir.

# "Mədəni yenilənmə"də növbəti görüş

## Əddis Hacıyev: "Kino sənayesində yeni nəsil üçün ilkin laboratoriyalar yaratmaq lazımdır"

Mədəniyyət Nazirliyi və YARAT Müasir İncəsənət Mərkəzinin ötən ilin oktyabrında başladığı "Mədəni yenilənmə" layihəsi davam edir. Layihənin məqsədi xaricdə yaşayan, musiqi, teatr, kino, ədəbiyyat və elm sahəsində peşəkar uğurlara imza atmış istedadlı soydaşlarımızın fəaliyyəti ilə Azərbaycan tamaşaçılarını tanış etməkdir.

"Mədəni yenilənmə"nin budəfəki qonağı Rusiya Kino və Televiziya Rəssamları Gildiyasının vitse-prezidenti, Moskva Kino Məktəbinin bədii proqramlar üzrə rəhbəri və "Bədii quruluş" proqramının kuratoru, rejissor, teatr və kino rəssamı Əddis Hacıyev oldu.

Aprelin 26-da YARAT Müasir İncəsənət Mərkəzində reallaşan görüşdə çıxış edən mərkəzin İctimai proqramlar departamentinin rəhbəri Ülviyyə Axundova layihəyə diqqət ayırdığına görə Əddis Hacıyevə təşəkkürünü bildirdi: "Bu gün zalda Əddis Hacıyevlə görüşə gələnləri, sözün əsl mənasında, Azərbaycan kinosunun təəssübkeşləri adlandırmaq olar. Eyni zamanda layihə çərçivəsində həmyerlimiz təhsil sahəsi üzrə ekspert Yekaterina Çərkəzzadə ilə aprelin 27-də kreativ sənayelərin inkişafına dair panel müzakirə keçiriləcək".

Daha sonra söz Əddis Hacıyevə verildi. O, layihədə iştirak üçün dəvət olunduğuna görə təşkilatçılara təşəkkürünü bildirdi. Diqqətinə çatdırdı ki, rəssam olsa da, filmlər də çəkir. "İdrak" adlı qısametrajlı filmini nümayiş üçün Bakıya gətirib. Film 2021-ci ildə Türkiyənin Aydın şəhərində keçirilən "Efeler" film festivalında mükafata layiq görülüb. O, həmçinin Moskva Kino Məktəbi tələbələrinin ərsəyə gətirdikləri işlərin də təqdim ediləcəyini diqqətə çatdırdı.

Təhsil üzrə ekspert Yekaterina Çərkəzzadə haqqında da məlumat verən Əddis Hacıyev bildirdi ki, o, yaradıcı sənayelər sahəsində aparıcı təhsil müəssisələrini – Britaniya Ali Dizayn Məktəbi, "Scream" Kompüter Texnologiyaları Məktəbi, Moskva Kino Məktəbi, Moskva Memarlıq Məktəbi, Moskva Kommunikasiya Məktəbi, Moskva Musiqi Məktəbi və digər layihələri özündə birləşdirən Universal Universitetin direktorudur.

Daha sonra Moskva Kino Məktəbi tələbələrinin qısametrajlı filmləri nümayiş olundu. Avropa, Rusiya və Azərbaycanda kino istehsalının xüsusiyyətlərinə dair müzakirələr aparıldı.





***

Görüş zamanı fürsətdən istifadə edərək Əddis Hacıyevdən kino sənayesi ilə bağlı düşüncələrini də öyrəndik.

*– Azərbaycanın kino sənayesi ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı...*

– Kino sənayesinin inkişafı bu sahədə çalışan insanlardan asılıdır. Yəni əsas burada kimlərin fəaliyyətdə olmasıdır.

*– Azərbaycanda Kino Agentliyi yaradılır. Sizcə, yeni qurum kinomuza hansı yenilikləri gətirə bilər?*

– Düşünürəm ki, yeni agentlik Azərbaycanda kinonun inkişafı üçün çox önəmli bir addım oldu. Kinematoqrafiya sahəsi bizdə həmişə yüksək səviyyədə olub. Bu gün də kinoya yeni dalğa gəlir. Bilirəm ki, çoxsaylı gənc rejissorlar nəsli yetişir, onlar beynəlxalq müsabiqələrdə uğur qazanırlar. Bir müddət əvvəl Moskvada möhtəşəm Azərbaycan kinosu həftəsi təşkil edildi...

*– Dövlət kinoya pul yatırmalıdır, yoxsa kino ölkəyə pul gətirməlidir?*

– Söhbət ondadır ki, bu gün kino sənayesi yaradıcı sənayenin bir növüdür. Bu baxımdan kino Azərbaycanda kreativ sənayenin inkişafı və iqtisadiyyatın yüksəlməsi üçün öz töhfələrini verə bilər. Yaxın 10-15 ildə iqtisadiyyatın sənaye sahəsindən bütün gəlirlər tükənəndə ən çox gəlir gətirən sahə kino ola bilər. Kino gələcəyin və sonsuz valyutanın ünvanıdır.

*– Çoxları deyir ki, bu gün yaxşı ssenaristlər yoxdur...*

– Bu, çox vacib məsələdir. Onları yetişdirmək lazımdır. Üstündə çalışmadığın, təhsil vermədiyin, yetişdirmədiyin məhsulu necə tələb edə bilərsən? Çünki kino təhsilsiz, təcrübəsiz mövcud deyil. Kino təhsili ilk pillədə çox mühüm şərtdir. Mənə belə gəlir ki, kino sənayesində yeni nəsil üçün ilkin laboratoriyalar yaratmaq lazımdır. Onlar da öz növbələrində ümumi kino mühitini yarada biləcəklər. Amma "ssenarist, rejissor yoxdur" fikri düzgün səslənmir. Onlar bizim ətrafımızdadır. Sadəcə, biz onları tapmalı, təhsil verməli və qiymətləndirməliyik. Yəni kinoya cəlb etməliyik. Onlara təhsil verib kinodan kənar saxlamaq da bu sahənin inkişafına heç bir nəticə verməyəcək.

*– Bəs kino mədəniyyətə nə dərəcədə təsir edir, onu necə inkişaf və təbliğ etdirə bilir?*

– Kinematoqraf mədəniyyətin inkişafına, təbliğinə yönəlmiş alətdir. Kino sənayesi isə iqtisadi məna kəsb edir. Bunların hər ikisi birləşəndə möhtəşəm sintez yaranır. Mədəniyyət yüksəlir, yeni iş yerləri, kinoteatrlar, infrastruktur yaranır.

**Lalə Azəri**

# Gözlərə nur bəxş edən nəcib xanım

Ağstafa RMİ Tovuz rayon Heydər Əliyev Mərkəzi və MKS-nin birgə təşkilatçılığı ilə gerçəkləşən "Gözlərə işıq verən zərif insan ömrü" mövzusunda tədbirdə Zərifə Əliyevanın ölkəmizdə oftalmologiya elminin inkişafında, həkimlərin yeni nəslinin yetişməsində rolundan söhbət açılıb.



Kürdəmir RMİ Beyləqan rayon Heydər Əliyev Mərkəzində "Gözlərə nur saçan nur üzlü ana" adlı tədbir təşkil edilib. Zərifə Əliyevanın ömür yoluna həsr edilən film nümayiş etdirildikdən sonra akademikin həyat və fəaliyyətini əks etdirən kitab və fotoşəkillərə baxış keçirilib.

Masallı RMİ Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Nurlu ömrün salnaməsi" mövzusunda tədbir keçirilib. Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva Zərifə Əliyevanın XX əsr Azərbaycan tibb elminin inkişafındakı müstəsna rolundan danışıb.

Biləsuvar RMİ Salyan rayon Heydər Əliyev Mərkəzində keçirilən "İşıqlı dünya" adlı tədbirdə Zərifə Əliyevaya həsr olunmuş videoçarx nümayiş etdirilib.



Xaçmaz RMİ Xaçmaz rayon Heydər Əliyev Mərkəzində görkəmli oftalmoloqalim, akademik Zərifə Əliyevanın anadan olmasının 99-cu ildönümü ilə əlaqədar "Şəfqətli əlləri ilə gözlərə nur bəxş edən nəcib xanım" adlı tədbir keçirilib. Çıxışlarda Zərifə Əliyevanın zəngin elmi irsi, ölkəmizdə oftalmologiyanın inkişafında xidmətlərindən söz açılıb.

Gəncə RMİ Goranboy rayon Heydər Əliyev Mərkəzində "Nəsillərə örnək olan ömür yolu" mövzusunda tədbir təşkil edilib.

Şəki RMİ Balakən rayon Heydər Əliyev Mərkəzində "Zərifə Əliyeva – gözlərə şəfa verən insan" adlı mühazirə oxunub, "Zərifə Əliyeva dünyası – nur və şəfqətlə dolu aləm" adlı film nümayiş etdirilib.

Bərdə RMİ Bərdə rayon MKS-nin 4 nömrəli şəhər kitabxana filialı "Gözəl ana, qayğıkeş həkim – Zərifə Əliyeva" adlı tədbir keçirib.

# Alim-pedaqoq və yazıçı ömrü



Sabirabad Regional Mədəniyyət İdarəsinin (RMİ) təşəbbüsü, Sabirabad Rayon İcra Hakimiyyətinin dəstəyi ilə rayon Mədəniyyət Mərkəzində görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin (1908-1978) anadan olmasının 114-cü ildönümü münasibətilə tədbir təşkil olunub. Tədbirdə rayon Mərkəzi Kitabxanasının fondunda yer alan ədibin əsərlərindən, onun haqqında yazılmış bioqrafiyalardan ibarət kitab sərgisinə baxış keçirilib.

Sonra "Addım" Gənclər Təşkilatının sifarişi ilə yazıçının "Kəmtərovlar ailəsi" hekayəsinin motivləri əsasında lentə alınmış "İki yad adam" filmi nümayiş olunub. Təqdimatda filmin yaradıcı heyəti – layihənin rəhbəri, "Addım" Gənclər Təşkilatının sədri Hüseyn Cavadzadə, Əməkdar artist Gülşad Baxşıyeva, baş rol ifaçıları Riyad Abdul və Duyğu Dəvəli də iştirak ediblər.

Qeyd edək ki, film Çinin paytaxtı Pekində keçirilən "Grand Asian" Film Festivalının final gecəsində nümayiş olunub. Ekran işi həmin festivalda "Ən yaxşı sosial mövzuda film" və "Ən yaxşı aktyor oyunu" nominasiyasında mükafatlara layiq görülüb.

***

İsmayıllı RMİ Şamaxı rayon Mirzə Ələkbər Sabirin Ev-Muzeyində professor "Mir Cəlal Paşayevin çoxşaxəli yaradıcılığı və fəaliyyəti" mövzusunda tədbir təşkil edilib. Muzeyin direktoru Rəqsanə Xəlilzadə və əməkdaşlar Nailə Cabbarova, Mehriban Kərimova ədəbiyyatşünas və yazıçının həyat və yaradıcılığı haqqında danışıblar.

Ağstafa RMİ Tovuz rayon Mərkəzi Kitabxanasında "Mir Cəlal Paşayev – 114" başlığında yazıçının əsərlərinin biblioqrafik xülasəsi və sərgisi təşkil olunub.

***



Mir Cəlal Paşayevin Gəncədəki ev-muzeyində də tədbir keçirilib. Tədbir Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə RMİ-nin təşkilatçılığı ilə reallaşıb. Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, muzeyin direktoru İradə Paşayeva, mədəniyyət və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə Mir Cəlalın həyat və yaradıcılığından söz açılıb. Bildirilib ki, Mir Cəlalın çoxşaxəli yaradıcılığı yeni nəsillərə örnəkdir.

Tədbirdə Mir Cəlal Paşayevin Ev-Muzeyinə yeni eksponatlar hədiyyə olunub. F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının "Göygöl" Mahnı və Rəqs Ansamblı konsert proqramı ilə çıxış edib.

# İşğaldan azad olunandan sonra Tuğda ilk dəfə kilsə zəngi

Azərbaycan Alban-Udi Xristian Dini İcmasının üzvləri Xocavənd rayonunun Tuğ kəndində Müqəddəs İohann kilsəsini ziyarət edib.



Pasxa bayramı ilə bağlı Xocavəndə səfər edən icma nümayəndələri Hadrut qəsəbəsində olub, rayonun Hünərli və Tuğ kəndlərinə gedərək müqəddəs məbədləri ziyarət ediblər. İşğaldan azad olunandan sonra Tuğda ilk dəfə kilsə zəngi səsləndirilib.

Müqəddəs İohann alban kilsəsi XIII əsrdə inşa edilib. İşğal dövründə ermənilər təmir-bərpa adı ilə məbədi erməni-qriqorian kilsəsinə çevirməyə çalışıblar.

# Dövlətə və xalqa xidmət örnəyi

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə müxtəlif tədbirlər təşkil olunur, dahi siyasi xadimin ölkəmizin inkişafında misilsiz xidmətləri minnətdarlıqla xatırlanır.



Masallı Regional Mədəniyyət İdarəsi (RMİ) N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində "Heydər Əliyev və mədəniyyət" mövzusunda tədbir keçirilib. Yeni Azərbaycan Partiyası (YAP) Masallı rayon təşkilatı və RMİ-nin birgə təşkil etdiyi tədbirdə çıxış edənlər ulu öndərin hakimiyyət illərində mədəniyyət sahəsində dövlət siyasətinin əsas cəhətləri, bu illər ərzində mədəniyyətimizin mühüm yenilikləri və digər məsələlərdən danışıblar.



Ağstafa RMİ Ağstafa rayon Heydər Əliyev Mərkəzində "Əbədiyaşar lider" adlı şeir müsabiqəsinin seçim turu keçirilib. Rayon orta ümumtəhsil məktəblərindən 38 şagirdin iştirak etdiyi müsabiqədə fərqlənən 16 nəfər final mərhələsinə vəsiqə qazanıb.

Ağstafa Dövlət Rəsm Qalereyasında ümummilli liderin dünyaya gəlişinin 99-cu ildönümünə həsr edilmiş rəsm müsabiqəsi elan edilib. Tədbirin açılışında qalereyanın direktoru Gülgün Kərimov çıxış edərək müsabiqənin qaydaları haqqında iştirakçılara məlumat verib.

Bərdə RMİ Mingəçevir şəhər Heydər Əliyev Mərkəzinə şəhər 19 saylı tam orta məktəbin 8-ci sinif şagirdlərinin ekskursiyası təşkil edilib.

Gəncə RMİ Gəncə şəhər Heydər Əliyev Mərkəzinin təşəbbüsü və 3 saylı uşaq bağçasının təşkilatçılığı ilə "Heydər babamızın nəvələriyik" mövzusunda tədbir keçirilib. Bağçanın fidanları ulu öndərə həsr olunmuş şeirlər söyləyiblər.



Ağdaş RMİ Ucar rayon Heydər Əliyev Mərkəzinə ümummilli liderin anadan olmasının 99-cu ildönümü münasibətilə Ucar şəhər 2 nömrəli tam orta məktəbin müəllim və şagirdləri üçün ekskursiya təşkil edilib.

Zərdab rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə ulu öndərin həyat və fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub.

# Şuşa soraqlı tədbirlər

Kürdəmir Regional Mədəniyyət İdarəsinin (RMİ) "Şuşa İli" çərçivəsində təşkil etdiyi "Anadır arzulara hər zaman Qarabağ" adlı regional xor müsabiqəsinin seçim mərhələsi başa çatıb.



Xocavənd rayon Uşaq musiqi məktəbində keçirilən mərhələdə xor kollektivləri çıxış ediblər. Müsabiqədə ümumilikdə 14 uşaq musiqi və incəsənət məktəbi iştirak edib. Kürdəmir rayon Uşaq incəsənət məktəbinin xor kollektivi I, Xocavənd rayon Tuğ kənd Uşaq musiqi məktəbinin xor kollektivi II, Füzuli rayon Böyük Bəhmənli kənd Uşaq musiqi məktəbinin xor kollektivi III yeri qazanıb.

Müsabiqənin qalibləri aprelin 30-da keçiriləcək tədbirdə mükafatlandırılacaq. Müsabiqənin münsiflər heyətinin sədri Azərbaycan Dövlət Xor Kapellasının bədii rəhbəri və dirijoru, Xalq artisti Gülbacı İmanovadır.



Şəki RMİ M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən İ.Salmanov adına şəhər Folklor klubunda "Ətrini duydum, xarıbülbül" adlı konsert proqramı keçirilib. Konsertdə vətənpərvər ruhlu musiqilər ifa edilib.

Lənkəran RMİ-nin tabeliyində fəaliyyət göstərən H.Rzayeva adına 2 nömrəli Uşaq musiqi məktəbində "Şuşa İli" münasibətilə



"Vətənimdir Azərbaycan" adlı konsert proqramı təşkil olunub. Konsertdə xalq mahnıları, rəqs və Azərbaycan bəstəkarlarının əsərləri səsləndirilib.

Sumqayıt RMİ Sumqayıt şəhər Poeziya evində idarə rəisi Rəşad Əliyevin iştirakı ilə Şuşa rayonunun mədəniyyət işçiləriylə müşavirə keçirilib.

Gəncə RMİ Gəncə şəhər MKS-nin 5 saylı kitabxana filialında "Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə şəhər 13 saylı məktəbin şagirdləri Şuşa haqqında mahnılar oxuyub, şeirlər söyləyiblər. Goranboy rayon Dövlət Rəsm Qalereyasında isə Şuşa şəhərinin 270 illiyi ilə əlaqədar tədbir təşkil edilib.



Sumqayıt RMİ Nizami Gəncəvi adına şəhər kitabxana-klubunun əməkdaşları və kitabxananın nəzdində fəaliyyət göstərən rəsm dərnəyinin şagirdləri Milli Qəhrəman, general-mayor Polad Həşimovun ailəsini ziyarət ediblər. Görüş zamanı dərnəyin rəhbəri Günel Aslanova öz əl işi olan "Polad Həşimovun portreti"ni generalın anası Səmayə Həşimovaya hədiyyə edib.

# Vətən sevgisi – şəhidlik zirvəsi

Xaçmaz RMİ Qusar rayon Mədəniyyət Mərkəzi və Zindan Muruq kənd klubunun əməkdaşları Vətən müharibəsi şəhidi Ruslan Cəfərovun ailəsini və məzarını ziyarət ediblər.

Ağcabədi RMİ Ağdam rayon Güllücə kənd Uşaq musiqi məktəbinin bir qrup müəllimi Vətən müharibəsi şəhidi Sərvan Göyüşovun ailəsinə baş çəkiblər.

Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə və idarənin əməkdaşları tərəfindən Vətən müharibəsi şəhidləri Nahid Nəsirov, Asim Əliyev və Zamin Balakişiyevin ailələri ziyarət edilib. İdarə rəisi həmçinin uzun müddət Saatlı rayon Mərkəzi Kitabxanasının Xidmət şöbəsində baş kitabxanaçı işləmiş Sənubər Zeynalova və Sabirabad rayonunda mədəniyyət mərkəzinin direktoru işləmiş Əliheydər Əliyevin ailələrində olaraq onlara ərzaq sovqatı təqdim edib.

Şəmkir RMİ Daşkəsən rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi tərəfindən I Qarabağ müharibəsi şəhidi Anar Mürsəlovun anım günü ilə əlaqədar adını daşıdığı 2 saylı orta məktəbdə "Vətən sevgisi-şəhidlik zirvəsi" adlı tədbir keçirilib. Məktəbin direktoru Aybəniz Vəliyeva və Uşaq şöbəsinin müdiri Pərvanə Məmiyeva şəhidin həyatı və döyüş yolu haqqında danışıblar. Şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.



# Lənkəranda rəssamlıq üzrə ustad dərsləri

Mədəniyyət Nazirliyinin təşəbbüsü və təşkilatçılığı ilə nazirliyin Mədəniyyət üzrə Elmi-Metodik və İxtisasartırma Mərkəzi tərəfindən Lənkəran RMİ Lənkəran şəhər Mədəniyyət Mərkəzində təsviri sənət üzrə ustad dərsləri keçirilib.

Ustad dərslərinə Lənkəran şəhər Uşaq rəssamlıq məktəbinin şagirdləri və şəhər Heydər Əliyev Mərkəzi, Astara Dövlət Rəsm Qalereyasının dərnək üzvləri qatılıb.

Lənkəran RMİ-nin məsləhətçisi Anar Kəkəyev ustad dərslərini açaraq qonaqları salamlayıb, gənc rəssamlara uğurlar arzulayıb.

Mədəniyyət üzrə Elmi-Metodik və İxtisasartırma Mərkəzi Bədii təhsil şöbəsinin müdiri Fuad Sadıqov, həmin şöbənin əməkdaşı Fəridə Kərimova, Azərbaycan Rəssamlıq Akademiyasının müəllimi Aydan Şahbazlı ustad dərslərinin əhəmiyyətini qeyd ediblər.

Daha sonra mütəxəssislər sulu boya ilə kağız üzərində natürmort işləməyin yollarını əyani göstəriblər.

Sonda qonaqlar Lənkəran şəhər Uşaq rəssamlıq məktəbinin "Şuşa İli"nə həsr olunmuş əl işlərindən ibarət sərgisinə də baxış keçiriblər. Məktəbin direktoru Xəzər İbrahimov ustad dərslərinin təşkilinə görə



təşəkkürünü bildirib. Qeyd edib ki, peşəkar rəssamlarla ünsiyyət şagirdlər üçün mühüm motivasiyadır.

# Bu yol Laçına gedir...

İşğaldan azad edilmiş rayonların sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən verilən məlumata görə, başlanğıcı Hacıqabul-Horadiz-Ağbənd magistralının Xudafərin su anbarı (Cəbrayıl rayonu) yaxınlığından keçən hissəsindən götürən Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun uzunluğu 56.4 km-dir. Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər inşa olunan 14 km-lik yeni avtomobil yolu ilə birlikdə layihə 70.4 km təşkil edir.

Xudafərin-Qubadlı-Laçın avtomobil yolu 4 hərəkət zolaqlı olmaqla I texniki dərəcəyə uyğun olaraq inşa olunur. Tikinti işləri çərçivəsində Xudafərin-Qubadlı-Laçın



avtomobil yolunun 45 km-lik hissəsində torpaq yatağının inşası işləri davam etdirilir. Yol yatağı hazır olan 8 km-lik hissədə yol əsasının tikintisi işləri yekunlaşdırılıb və asfalt-beton örtüyü döşənib. Xanlıq istiqamətində olan 14 km-lik hissədə torpaq işləri, boru və keçidlərin, körpülərin, istinad divarlarının tikintisi, topoqrafiya və layihələndirmə işləri icra edilir.

# Qubadlı abidələrinə həsr olunan tədbir keçirilib

Sumqayıt RMİ-nin tabeliyindəki Qubadlı Rayon Tarix-Diyarşünaslıq Muzeyində Qubadlı rayonunun abidələrinə həsr olunan tədbir keçirilib.

Muzeyin direktoru Vaqif Babayev çıxışında Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqına məxsus çoxəsrlik qədim tarixi-dini abidələrin, müqəddəs ocaqların və məbədlərin dağıdılaraq məhv edildiyini, bəzilərinin üzərində erməniləşdirmə əlamətlərinin aşkar olunduğunu bildirib. Qeyd olunub ki, bu vandalizm aktları Qubadlı rayonundan da yan keçməyib. Rayonun işğaldan azad olunmuş Məmər kəndindəki XVIII əsrə aid məscid də dağıdılıb.

Tədbirdə həmçinin Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət xidmətinin Qubadlı rayon üzrə baş mütəxəssisi Sədi Vəliyev, muzeyin kiçik elmi işçisi Günel Quluzadə və digərləri də çıxış ediblər.

Hazırladı: N.Məmmədli



Xəbər verdiyimiz kimi, 23-26 aprel tarixində Bakıda Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Barokko günləri" Beynəlxalq Musiqi Festivalı keçirildi.

# Klavesin – orkestrin kralı

## "Barokko günləri" festivalının son konserti belə adlanırdı

Dörd gün ərzində paytaxtımızı barokko havasında saxlayan festivalın son konsert proqramı aprelin 26-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında gerçəkləşdi.

"Klavesin – orkestrin kralı" adlı konsertdə məşhur italiyalı musiqiçi Stefano Demikeli (klavesin) çıxış etdi. O, tanınmış bəstəkarlar A.Korelli, İ.S.Bax, G.F.Hendel və A.Vivaldinin əsərlərini səsləndirdi. Musiqiçinin ifası tamaşaçılar tərəfindən alqışlarla qarşılandı.

Qeyd edək ki, Stefano Demikeli mütəmadi olaraq "La Skala", "Fundacio La Caixa di Barcelona", "Utrexte Oude Muziek" və digər məşhur səhnələrdə çıxış edir. O, dünyanın müxtəlif ölkələrində keçirilən festivalların da fəal iştirakçısıdır. İfaçı beş ildən artıq tanınmış dirijor R.Ceykobsun assistenti kimi onun Avropada nümayiş etdirilən opera tamaşalarında iştirak edib, klavesin ifaçıları və müğənnilərin məşqçisi olub.

S.Demikeli 2004-cü ildə dirijoru olduğu "La Tempesta" (hazırda "Dolce & Tempesta" adlanır) ansamblını təsis edib. Bu kollektivlə bir çox festivallarda səhnəyə çıxıb.

2010-cu ildə Barselonanın "Akademiya-1750" adlı təhsil ocağında dirijor kimi fəaliyyətə başlayıb. 2012-ci ildə isə gənclərdən ibarət "Talenti Vulcanici" orkestrinə musiqi rəhbəri təyin olunub. S.Demikelinin rəhbərlik etdiyi "Pieta dei Turchini" fondunun (Neapol) yaratdığı barokko üslubunda orkestr 2019-cu ildə Abbiatinin "İtalyan musiqi tənqidçiləri" mükafatına layiq görülüb.

S.Demikeli K.Abbado, R.Çalli, K.Rovaris, İ.Bolton, C.Antoni, P.Qodvin və digər məşhur solist və dirijorlarla işləyib.

Qeyd edək ki, "Barokko günləri" Beynəlxalq Musiqi Festivalında azərbaycanlı ifaçılarla yanaşı, İtaliya, Türkiyə, Ukrayna və Gürcüstan sənətçiləri də barokko musiqisi həvəskarlarının qarşısına çıxdılar.

**Nurəddin**

# Qəribə, görünməmiş inci, bir də "Orfey və Evridika"

Bakıda ilk dəfə keçirilən "Barokko günləri" festivalı bizim sənətsevərlər üçün çox maraqlı, həm də bir çox yeniliklərilə yadda qaldı. Yeniliklərdən biri və bəlkə də ən birincisi o oldu ki, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Avropa barokko musiqisinin incilərindən sayılan, XVIII əsrin görkəmli alman bəstəkarı Kristof Villibald Qlükün "Orfey və Evridika" operasının premyerası baş tutdu.

Tamaşa barədə danışmazdan əvvəl barokko kəlməsi barədə söz deyək ki, niyə məhz barokko sayaq sualları qabaqlayaq. XVI-XVII əsr Avropa incəsənəti və memarlığında üstün olmuş, xırdalıqlara, rəmz və alleqoriyalara diqqət, möhtəşəm kompozisiyalar, abartmalar, emosionallıq, incə, dalğavarı xətlər və dekor bolluğunun səciyyəvi olduğu bu üslubun adı portuqal dilindən tərcümədə "nahamar formalı mirvari" deməkdir. Memarlıq və incəsənətdə öz diktəsini yeritmiş italyanlar isə barokko dedikdə qəribə, görünməmiş nəsnəni nəzərdə tutublar. Beləliklə, dənizlər fatehi portuqallarla səhnələr triumfatoru italyanların münasibətini bir ifadədə birləşdirsək, barokkonu – qəribə, görünməmiş inci kimi təqdim edə bilərik.

İndi də tamaşa barədə. Orta statistik Azərbaycan dinləyici auditoriyasının əksəriyyəti yəqin ki, Orfey ismini ilk dəfə unudulmaz Müslüm Maqomayevin ifa etdiyi "Melodiya" mahnısında eşidib: "Sən mənim melodiyamsan, mən sənin sadiq Orfeyin...". Bəli, mahnıda adıçəkilən Orfey, qədim yunan əsatirlərindən bu günə qədər kişi sədaqətinin nümunəsi sayılan həmin mifik qəhrəmandır. Bəstəkar Qlükün operası da həmin qədim yunan əsatirindən qidalanır. Lakin 1762-ci il oktyabrın 5-də Vyanada ilk dəfə oynanılan bu operada bəstəkar librettonun müəllifi Ranyero da Kalsabici ilə birlikdə əsatirin süjetini bir qədər dəyişilmiş tərzdə təqdim etmişdi. Operanın titul qəhrəmanları Orfey və onun sevimli zövcəsi Evridika adi insanlar kimi göstərilmişdi. Yeri gəlmişkən, yunan əsatir qəhrəmanı frakiyalı Orfey dahi musiqiçi sayılır və yunanlar onu ilahiləşdirirlər.

Ölümün vaxtsız ayırdığı bədbəxt sevgililər barədə kədərli əsatir dildən-dilə düşdükcə, müxtəlif müəlliflər ona müraciət etdikcə zaman-zaman çox fərqli versiyalar ortaya çıxmışdı. Lakin Kristof Qlükün sayəsində tamaşaçılar bu əhvalatı məhəbbətin və sədaqətin təntənəsi kimi görür. Bəstəkar əsatirin faciəvi məzmununu xoşbəxt sonluğa aparıb çıxarır. Musiqi əsəri dinləyiciyə bir daha çatdırır ki, əsl hisslər zamandan, məsafədən, ayrılıqdan, hətta ölümdən də üstündür.

Əsər barədə uzun danışmaq istəmirik. Əminik ki, Akademik Opera və Balet Teatrı "Orfey və Evridika" tamaşasını festival günlərində nümayiş etirməklə kifayətlənməyəcək, onu daimi repertuarına daxil edəcək. Hər halda musiqisevərlərin marağı, tamaşanı nəfəs dərmədən həvəslə izləməsi bizə belə düşünməyə imkan verir.





Oxucu sual verə bilər: madam ki, "Orfey və Evridika" operası bu qədər maraqlı və mükəmməl əsərdir, niyə indiyədək bizim teatrda təkcə adı çəkilən əsər yox, eləcə də başqa barokko operaları, erkən Avropa operaları səhnələşdirilmir? Cavab sadədir: səs. Daha doğrusu, səs qıtlığı. Məsələ ondadır ki, intibah dövrü və erkən Avropa operalarındakı kişi qəhrəmanların partiyaları əsasən, o zamankı dillə desək, kastrat, yəni xədim səsi üçün yazılırdı. Bu gün nə qədər vəhşi, iyrənc və eybəcər səslənsə də, Orta əsr Avropasında gözəl vokal səsi olan yeniyetmə oğlan uşağını səsin sınma yaşı çatmamış xədim edirdilər ki, yetkinlik yaşına çatanda səsi qalınlaşmasın. Çünki təbiət həmin ariyaları ifa edəcək səsi – kontratenor səsini çox nadir hallarda insana bəxş edir və bir qayda olaraq da, belə səs sahiblərinin çoxu öz vokal səsinin imkanlarından (bəzən isə hətta səsin mövcudluğundan) xəbərsiz olur. Olsun ki, belə bir qəddar qərar həm də dövrün musiqi alətlərinin sırf texniki imkanlarına bağlı olub. Bəzən isə teatrlarda kontratenor səsi üçün yazılmış ariyaları kişi qiyafəsində səhnəyə çıxan messo-soprano, yaxud kontralt səsli qadın vokalçılar ifa edirlər.

Amma bizim bəxtimiz gətirib. Əməkdar artist İlham Nəzərov həmin nadir kontratenor səsinə malikdir.

Elə "Orfey və Evridika" tamaşasının əsl qəhrəmanı da İlham Nəzərov oldu. Musiqişünaslar əfsanəvi frakiyalı müğənni Orfeyin partiyasını nəinki mürəkkəb, hətta qəliz adlandırırlar. Bizim Orfey öz qəhrəmanının partiyasını təkcə vokal baxımından deyil, həm də emosional cəhətdən dolğunluqla çatdıra bildi. İfaçı ilk səhnədə – sevdiyi qadının ölümü səhnəsində də, onun ardınca mərhumlar aləmində də səmimi və təbii idi. Ümumiyyətlə, İlham Nəzərov bir sənət adamı olaraq çox çalışqan, oxuduğu hər nəğməyə, romansa belə can qoyan, onu obraz kimi təqdim etməyi bacaran şəxsdir. Zəhmətsevərlik istedadla birləşəndə isə mütləq ürəkaçan iş ortaya çıxır.

Ukrayna Milli Operasının solisti Anastasiya Povajna da Evridikanı əsatir qəhrəmanı kimi deyil, məhz Qlükün görmək istədiyi sevən qadın kimi çatdırdı. Evridikanın vokal partiyası çox kiçik olsa da, gənc və yaraşıqlı ukraynalı vokalçı öz səs imkanlarını göstərə bildi.

Əməkdar artist İnarə Babayeva qoruyucu mələk Amur kimi maraqlı obraz yarada bildi. Öz incə və işvəkar Amuru ilə İnarə xanım indiyədək oxuduğu uğurlu partiyalara birini də əlavə etdi.

İndiyədək bizim teatrın səhnəsində bir neçə Avropa operasına uğurlu quruluş vermiş Ukraynanın Əməkdar incəsənət xadimi Mikola Tretyak isə "Orfey və Evridika" tamaşası ilə əməkdaşlıq siyahısına daha bir əsərin adını əlavə etmiş oldu. Üstəlik, quruluşçu rejissor 3 pərdədən ibarət tamaşanı birhissəli bitkin tamaşa kimi qurmağa müvəffəq olub.

Başqa teatrları deyə bilmərik, amma bizim teatrda "Orfey və Evridika" operasını izləyənlər sanki bir göstəridə iki tamaşa seyr etmiş oldular: biz səhnədə əsas qəhrəmanların oxşarlarını, sənət dili ilə desək, alter-eqolarını da gördük. Baletmeyster, Xalq artisti Kamilla Hüseynovanın təşəbbüsü ilə titul qəhrəmanların hisslərini, arzu və istəklərini plastik baxımdan ifadə edən balet artistləri tamaşaya daxil edilib. Əməkdar artist Anar Mikayılov–Liana Praqa cütlüyü "Orfey və Evridika" əhvalatını rəqsin dili ilə nəql etdi.

Orkestrin ifasına gəlincə. Sanki Akademik Opera və Balet Teatrının simfonik orkestri çoxdan bəri belə fərqli və musiqi palitrası baxımından saf və maraqlı əsər üzərində çalışmaqdan ötrü darıxıbmış. Baş dirijor, Əməkdar artist Əyyub Quliyevin idarə etdiyi orkestr Qlük dövrünün musiqi ovqatını çox ustalıqla ifa edərək salonu, saat yarım da olsa, barokko teatrları dövrünə apara bildi.

Əslində dövr demişkən… Olsun ki, bu gün – XXI əsrdə həyat ritminin itiləşdiyi, arzuların cılızlaşdığı, hövsələnin daraldığı, informasiyanın bollaşdığı dövrdə aradabir ötən dövrlərə qayıtmaq da gərəkdir. Nağılları seyr etmək, dinləmək, hətta qısa zaman kəsiyində özünü o nağılın içində hiss etməkdə də fayda var…

Eynilə "Orfey və Evridika" operasının seyrindəki kimi.

**Gülcahan Mirməmməd**

# "Şuşanın dağları, Zəfərin ulduzları"

Aprelin 26-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsi yeniyetmə və məktəblilərə qucaq açmışdı. Hər çıxışı alqışlarla qarşılanan istedadlı gənclər təkcə öz bacarıqlarını nümayiş etdirmir, həm də sanki mənsub olduqları millət və Vətən qarşısında imtahan verirdilər. Əlbəttə, bu, bir başlanğıc idi. Qarşıda onları böyük konsert proqramları gözləyir.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Rauf Hacıyev adına 15 nömrəli onbirillik Musiqi məktəbi şagirdlərinin "Şuşa İli"nə həsr olunmuş konsertinin adı da elə bu duyğuları əks etdirirdi: "Şuşanın dağları, Zəfərin ulduzları" .

Konsertdə məktəbin təcrübəli müəllimləri – Əməkdar mədəniyyət işçisi Tamilla Məmmədova, Svetlana Əliyeva və Ulduz Məmmədovanın şagirdləri çıxış edirdi.

Solistlər Rauf Hacıyev adına 15 nömrəli onbirillik Musiqi məktəbinin şagirdləri – Prezident təqaüdçüsü Cəmil Sədizadə, beynəlxalq müsabiqələr laureatları Əbdüləli Hüseynli, Samirə Cəfərli, Zərintac Qurbanzadə və Orxan Hüseynov idi.





Proqramda Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri yer almışdı. Şagirdləri Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor – Xalq artisti Rauf Abdullayev) müşayiət edirdi.

Çıxış edən şagirdlərin kifayət qədər yaradıcılıq təcrübəsinə malik olduqları açıq-aydın görünürdü. Təcrübə göstərir ki, mütəmadi konsertlərdə simfonik, kamera orkestri ilə çıxış edən şagirdlər səhnədə özlərini sərbəst və rahat hiss edirlər.

Konsertin iştirakçılarından Cəmil Sədizadə İspaniya, Fransa, İtaliya, Moskva və Gürcüstanda keçirilən müsabiqələrin qalibidir, Moskvada, Kreml sarayında keçirilən "Nəsillərin melodiyası" festivalında Rusiya Federasiyası Prezident Orkestri ilə çıxış edib.

Digər bir iştirakçı, beynəlxalq müsabiqələr laureatı Əbdüləli Hüseynli ötən il uğurlu səhnə fəaliyyətinə görə Gənclər Günü münasibətilə Mədəniyyət Nazirliyinin fəxri fərmanı ilə təltif olunub. O, təhsil aldığı illərdə İspaniya, Rusiya, Gürcüstan və digər ölkələrdə keçirilən müsabiqələrin qalibi olub.

VII sinif şagirdi Samirə Cəfərli da İspaniya, Rusiya, Qazaxıstan və Gürcüstanda keçirilən müsabiqələrin qalibidir. Zərintac Qurbanzadə, Orxan Hüseynli İspaniya, İtaliya və Rusiyada keçirilən müsabiqələrdə laureat adı qazanıblar.

Konsertdən sonra AZƏRTAC-a müsahibə verən Rauf Hacıyev adına 15 nömrəli onbirillik Musiqi məktəbinin direktoru Sevil Ələkbərova deyib: "Qarabağın tacı, mədəniyyət beşiyi olan Şuşa hər birimiz üçün doğmadır. 44 gün davam edən Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini işğaldan azad etdi. Həmin gün tariximizə Zəfər Günü kimi həkk olundu. 2022-ci ilin "Şuşa İli" elan edilməsi 28 il düşmən əsarətində olan, lakin heç vaxt milli simasını və ruhunu dəyişməyən bu şəhərin tarixi şöhrətini özünə qaytaracaq. Bugünkü konsertimiz də "Şuşa İli"nə həsr olunub. Konsertin qonaqları arasında Vətən müharibəsinin iştirakçıları, şəhid övladları da vardı. Düşünürəm ki, konsert uğurla keçdi, şagirdlərimizin ifası xoş təsir bağışladı...".

Direktor daha sonra deyib: "Tədris zamanı şagirdləri aşağı siniflərdən səhnədə, yaradıcılıqda özünü ifadə etmək üçün hazırlayır, onlara peşəkarlıq vərdişləri aşılayırıq. Bundan sonra da məsuliyyətlə çalışacaq, şagirdlərin peşəkar ifaçı kimi yetişməsi üçün ən müasir tədris üsullarını işimizə tətbiq edəcəyik".

Mayın 15-də görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Rauf Hacıyevin 100 illiyinin tamam olacağını söyləyən Sevil Ələkbərova diqqətə çatdırıb ki, yubileylə bağlı bu günlərdə ölkə başçısı tərəfindən sərəncam imzalanıb: "Mayın 19-da Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Rauf Hacıyevin yubileyi ilə əlaqədar tədbir keçiriləcək. Hazırda həmin tədbirə hazırlaşır və yubiley gecəsində də uğurlu çıxış etmək üçün məşqlər aparırıq...".

Qeyd edək ki, altmış ildən artıq fəaliyyət göstərən R.Hacıyev adına Musiqi məktəbi bu müddətdə onlarla Prezident təqaüdçüsü, laureat yetişdirib. Məktəbin məzunları orta və ali ixtisas musiqi ocaqlarında təhsillərini davam etdirərək musiqi mədəniyyətimizin inkişafına öz töhfələrini verirlər.

# Musiqi və kino

## Sənətşünasın yeni kitabları işıq üzü görüb

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Əlisəfdər Hüseynovun iki yeni kitabı işıq üzü görüb.

"5 zirvə" kitabında müəllif Azərbaycan musiqisinin korifeyləri – Ü.Hacıbəyli, Niyazi, Q.Qarayev, F.Əmirov və A.Məlikov haqqında oçerk, məqalə, sənədli hekayə və esselərində onların yaradıcılığına çağdaş estetik meyarlar prizmasından nəzər salır. "Bu kino ki var…" kitabında bizə tanış filmləri bir qədər fərqli baxış bucağından təhlil edən müəllif həmin filmlərdə şifrlənmiş bədii informasiyanı diqqətə çatdırır, kinonun fəlsəfəsi, estetikası ilə bağlı fikirlərini bölüşür.

Hər iki kitab müvafiq sahələrdə çalışan mütəxəssislər, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# Tofiq Quliyevin 105 illiyi ilə əlaqədar silsilə konsertlər

Azərbaycan caz və estrada musiqisinin banilərindən olan Tofiq Quliyevin (1917-2000) 105 illiyi ilə əlaqədar görkəmli bəstəkarın adını daşıyan 12 nömrəli onbirillik Musiqi məktəbi aprel ayında silsilə konsertlərlə çıxış edib.



Bakı Şəhər Mədəniyyət Baş İdarəsindən bildirilib ki, ilk konsert Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor – Xalq artisti Yalçın Adıgözəlov) müşayiəti ilə keçib. Konsertdə fortepiano, violin, tar, vokal ixtisasları üzrə təhsil alan şagirdlər Azərbaycan, rus və Avropa bəstəkarlarının əsərlərini səsləndirib.

Filarmoniyanın Kamera və orqan musiqisi zalında dirijor Orxan Haşımovun rəhbərliyi altında Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin müşayiəti ilə məktəbin əsasən kiçik sinif şagirdlərinin, eyni zamanda kiçik xor kollektivinin iştirakı ilə növbəti konsert keçirilib.

Baş idarənin rəisi İbrahim Əliyev tədbirdə çıxış edərək məktəbin kollektivinə uğurlar arzulayıb. Məktəbin direktoru Gülnarə Səfərova yubileyi münasibətilə fəxri fərmanla təltif olunub.

# Gənc muğam ifaçılarının konsert proqramı

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin A.M.Şərifzadə adına Mədəniyyət Mərkəzi və H.Abbasov adına Mədəniyyət Mərkəzi gənc muğam ifaçılarının iştirakı ilə "Şuşa İli"nə həsr olunmuş tədbir keçirib.

İdarədən bildirilib ki, konsertdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Mütəllim Dəmirov, IV Muğam Televiziya Müsabiqəsinin qalibi Sərxan Bünyadzadə, həmin müsabiqənin laureatı Nüşabə Kərimli, Asəf Zeynallı adına Musiqi Kollecinin tələbələri Gəray Qarayev, Daşqın Kürçaylı, Milli Konservatoriyanın müəllimi Nurlan Cəbizadə, Milli Konservatoriyanın tələbəsi Səyyar Teymurov, A.M.Şərifzadə adına Mədəniyyət Mərkəzin əməkdaşı Fərid Babayev çıxış ediblər.

“Şuşalı Milli Qəhrəmanlar”

# Son nəfəsində “Şuşamızı qoruyun!” demişdi...

## Memar da, tarzən də ola bilərdi, şəhidliyi “seçdi”...



“Şuşa İli” ilə bağlı təqdim etdiyimiz “Şuşalı Milli Qəhrəmanlar” silsiləsində bu dəfə igid Vətən oğlu Ramiz Qəmbərovun həyat və döyüş yolundan söz açacağıq.

Ramiz Bulud oğlu Qəmbərov 1962-ci il iyulun 2-də Şuşa şəhərində anadan olub. 1979-cu ildə H.Hacıyev adına 4 saylı Şuşa şəhər orta məktəbini bitirib. Bir müddət Kolxozlararası Tikinti İdarəsində fəhlə işləyib.

1980-ci ildə hərbi xidmətə yola düşüb, iki il sonra ordudan tərxis olunub Şuşaya qayıdıb. Əmək fəaliyyətinə fəhləlikdən başladığı idarəyə sonra mühəndis təyin edilir. 1986-cı ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti) daxil olur. Həm oxuyur, həm də işləyir.

Ramiz Qəmbərov 1988-ci ildə Ermənistanın Azərbaycana ərazi iddiaları yenidən baş qaldıran zaman erməni separatizminə qarşı mübarizəyə qalxan xalq hərəkatına qoşulur. Bədnam qonşularımızın işğalçılıq niyyətlərinin qarşısının alınması üçün aktiv fəaliyyət göstərir. Buna görə ali təhsilini yarımçıq qoyur. O, 1992-ci ildə könüllülərdən ibarət batalyon yaradır və özü də həmin batalyona başçılıq edir. Cəsur döyüşçü öz batalyonu ilə Şuşa şəhərinin, eləcə də Kərkicahan qəsəbəsi, Kosalar, Nəbilər, Qaybalı, Malıbəyli, Quşçular, Göytala kəndlərinin müdafiəsində mərdliklə vuruşur. Erməni terrorçuları 1992-ci ilin 29 aprelində Kosalar və Kərkicahana hücum edirlər. Ramiz Qəmbərovun batalyonu özünümüdafiə dəstələrinə köməyə gedir. Düşmən xeyli itki verir. Lakin həmin döyüşlərdə igid komandir ağır yaralanır və aprelin 30-da şəhid olur.

Milli Qəhrəmanın qardaşı Hafiz Qəmbərov qeyd edir ki, Ramiz cəsarətli, qorxmaz idi və Şuşanı canından artıq sevirdi: “O, tarda gözəl ifa edirdi. Görkəmli bəstəkar, Xalq artisti Süleyman Ələsgərov yayda Şuşada olanda onun ifasını eşitmiş və Ramizin gözəl musiqiçi olacağını demişdi. Qardaşım o vaxt oxuduğu ali məktəbin 3-cü kursunda təhsilini yarımçıq qoyub Vətənin müdafiəsinə qalxdı. Şəhid olandan sonra onun diplomu bizə təqdim olundu. Həmin ali məktəbin foyesində Ramizin barelyefi qoyulub. Qardaşım deyirdi ki, ermənilər ancaq mənim nəşimin üstündən keçib Şuşaya girə bilərlər. Təəssüf ki, belə də oldu. Mayın 1-də Ramiz sevdiyi Şuşa torpağında dəfn olundu. Yeddi gün sonra Şuşanı itirdik. Şükür ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz Şuşamızı, Qarabağımızı işğaldan azad etdi. Şuşaya gedəndə ilk işim qardaşımın məzarını ziyarət etmək oldu. Şuşa şəhidləri Cıdır düzündə dəfn olunmuşdular. Mənfur ermənilər həmin məzarları da yerlə yeksan ediblər...”.

Milli Qəhrəmanın döyüş yoldaşı İbrahim Məmmədov Ramiz Qəmbərovla bağlı xatirələrini bölüşür. Deyir, 1992-ci il aprelin 29-da ermənilər Qaybalı, Kosalar və digər kəndlərə hücum edəndə Ramiz Qəmbərov və mən daxil 10-dan çox əsgərdən ibarət qrup köməyə getdik. Biz əraziyə çatanda döyüş sakitləşmişdi. Daha sonra məlumat aldıq ki, düşmən aldadıcı manevr edərək Qızılqaya adlanan strateji yüksəkliyə hücum edib. Biz həmin istiqamətə yollandıq. Gördük ki, ermənilər bir postumuzu işğal edib. Günorta saatları idi. Bir az dincəldikdən sonra düşmən üzərinə əks-hücuma keçdik. Qeyri-bərabər olan döyüşdə Ramiz Qəmbərov və əsgərlərimiz böyük qəhrəmanlıq göstərdilər. Döyüşün qızğın anında mənə dedilər ki, tez gəl, Ramizi vurdular. Mən özümü Ramizin yanına yetirəndə onun kürək nahiyəsindən yaralandığını gördüm. Onu təcili döyüş bölgəsindən çıxararaq Şuşa Mərkəzi Rayon Xəstəxanasına apardım. O, dedi ki, əgər mənə bir şey olsa, Şuşamızı, batalyonumuzu qoruyun. Onu əməliyyat etdilər, lakin yarası ağır idi, bir gün sonra şəhid oldu. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Ramiz Qəmbərov ölümündən sonra, 7 iyun 1992-ci il tarixində “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.

Qeyd edək ki, Bakı şəhərindəki küçələrdən biri onun adını daşıyır. Ramiz Qəmbərov haqqında rejissor Kəmalə Musazadə tərəfindən “Şuşalı şəhid” adlı film çəkilib.

**Nurəddin**

# Sözlərə sığmayan ömürdən anlar...

## Həsən Əblucun 80 illiyi münasibətilə xatirəsi yad olundu



Mən 15 yaşında, 20 yaşında
Elə bilirdim ki, 40 qocalıqdır.
Bax, 40-ı ötmüşəm,
ancaq başımda
Uşaqlıq həvəsi hələ qalıbdır...

Bəli, məhz onun səsində, bənzərsiz avazında, bulaq kimi qaynayan təbində ağ-qara lentə köçmüş kadrlarında bir fraqmentlə başladı özü olmadan keçən növbəti yubileyi...

Aprelin 22-də Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində böyük sənətkar, teatr aktyoru və rejissoru, bədii qiraət ustası, pedaqoq, Əməkdar artist Həsən Əblucun (1942-1994) 80 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirildi.

Sənətkarın özünə, xasiyyətinə xas səmimi, sakit, məhrəm insanların bir araya toplaşdığı tədbiri muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova açaraq yarımçıq sənətkar ömrünə qısa nəzər saldı. “Ömür vəfa etsəydi, bu il Həsən Əbluc 80 yaşını qeyd edəcəkdi. Amma təəssüf ki, o, ömrünün 52-ci ilində dünyadan ayrıldı. Bir insan və xüsusilə bir sənətkar ömrü üçün bu, çox az zaman kəsiyidir. Bununla yanaşı, Tanrımı, talemi görünür ona qarşı bir o qədər də amansız olmayıb. Çünki o, qısa ömür çərçivəsində teatr tamaşalarında oynamağa yanaşı, həm də bir neçə filmdə, televiziya tamaşalarında rol alıb. Eyni zamanda Azərbaycan poeziyasından gözəl nümunələr səsləndirib. Yaxşı ki, o izlər qalır və məhz onların sayəsində Həsən Əblucu bir addım da yaxından görməyə, tanımağa, tanıtmağa müvəffəq olub, onun təkrarolunmaz səsini eşidə bilirik” sözləri ilə sanki hamının ürək pıçıltılarını dilləndirdi.

Ardınca sənətkarın həyat və yaradıcılığını əks etdirən videoçarx nümayiş olundu, aktyorun oynadığı televiziya və teatr tamaşalarından, çəkildiyi filmlərdən fraqmentlər izlənildi.

Həsən Əblucun ailə üzvləri, dostları, tələbələri, sənət yoldaşları, tərəf-müqabilləri onunla bağlı fikirlərini, kövrək xatirələrini bölüşdülər.



Xalq artisti Rafiq Əzimov onunla əməkdaşlığından danışdı, aktyorun özünə və başqalarına qarşı tələbkar olduğunu dedi. Bildirdi ki, Həsən Əbluc bütün rollarına, hətta adi qiraət nümunələrinə də böyük ürəklə yanaşır, hər şeyi daxilindən keçirirdi. Məhz buna görə onun böyük ürəyi belə tez, qəfil dayandı.

Xalq artisti Tariyel Qasımov dostunun mərdliyindən, dönməzliyindən, ədalət hissindən söz açdı. O, hələ dram dərnəyində çıxış edərkən başlarına gələn hadisələrə, indi xoş xatirəyə dönən qayğı və ümid dolu illərə nəzər saldı.

Aktrisa Sona Babayevaya növbə çatanda bayaqdan sinəsinə sıxdığı ağ-qara fotosunu hər kəsə göstərərək onun çəkilmə tarixçəsindən danışdı. Uzun illər öncənin gün kimi aydın xatirəsini çözələdi. Dostu, sirdaşı, mənəvi qardaşı Həsən Əblucun itkisi ilə heç zaman barışmadığını etiraf etdi.

Əməkdar artist Elxan Qasımov da hər kəsi gənclik dövrlərinə – 60-cı illərə apardı. O, Həsən Əblucdan çox şey öyrəndiyini dedi: “O, yaltaqlığın, əyri yollarla getməyin nə olduğunu bilmədi...”.

Xalq artisti Həmidə Ömərova, Əməkdar artist Ötkəm İsgəndərov sənət müəllimlərini sevgi ilə xatırladılar, ondan öyrəndikləri ilə sənətdə çox şeyə nail olduqlarını dedilər.

Xalq artisti Yasin Qarayev, Əməkdar artistlər Azad Şükürov, Şəfəq Əliyeva da Həsən Əblucla bağlı günlərə qayıtdılar. Gah qəhər boğan titrək səsləri, gah da məsum qəhqəhələri ilə bəzən amansız, tələbkar, bəzən də uşaq kimi kövrək müəllimlərini, rejissorlarını, sənət dostlarını yaddaşlarında yenidən canlandırdılar.

Son olaraq Əməkdar incəsənət xadimi, sənətkarın qardaşı Ənvər Əblucu dinlədik. Qəhər boğa-boğa qardaşını, sənət dostunu, sözün bütün mənalarında bütöv sənətkarı xatırladı: “Həsən sözün düzünü deyən, sözünün arxasında duran, bəzən də bunun əziyyətini çəkən adam idi”.

Ənənəvi olmayan, rəsmiyyətdən uzaq dost məclisini fərqli qılan bir məqam da onun peşəkar, çoxçalarlı, həzin musiqilərlə rövnəqlənməsi idi. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin ifasında Avropa və milli vokal nümunələri səsləndikcə insan fərqli dünyaya səyahət etmiş olurdu. Əslində, onun xatirəsinin işığına toplaşanlar məhz bu ruha köklənməli idi. Çünki onun qəlbəyatan avazı hər birimizin yaddaş dəftərinin ən gözəl səhifələrindəndir.

Təsadüfi deyil ki, mərhum Xalq şairi Vaqif Səmədoğlu aktyoru xarakterizə edərkən “Həsənin səsi torpağın səsidir” deyirmiş. Hesab edirəm ki, bu, sənətkar haqqında ən sadə, ən doğru, ən təsirli təyindir.

**Həmidə Nizamiqızı**

# Ordubadinin 150 illiyinə həsr olunmuş tədbir

Bu il görkəmli yazıçı, dramaturq, publisist Məmməd Səid Ordubadinin (1872-1950) anadan olmasının 150 illiyidir. Bu münasibətlə M.S.Ordubadinin Ev-Muzeyinin təşəbbüsü ilə silsilə tədbirlər keçirilir. Növbəti tədbir aprelin 26-da muzeyin və “Dünya Türk Ocaqları Mərkəzi”nin birgə təşkilatçılığı ilə gerçəkləşdi.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Lalə Abaszadə tədbiri açaraq yazıçının həyat və yaradıcılığından danışdı. Diqqətə çatdırdı ki, Azərbaycan ədəbiyyatında parlaq iz qoymuş Məmməd Səid Ordubadi 1872-ci ilin baharında Ordubad şəhərində şair Hacıağa Fəqirin ailəsində dünyaya göz açıb. İlk təhsilini məhəllə mollaxanasında alıb. Sonra şair Mirzə Baxışın məktəbində, daha sonra isə böyük maarifpərvər M.T.Sidqinin Ordubadda açdığı yeni üsullu “Əxtər” məktəbində oxuyub. 1906-cı ilin aprelində Tiflisdə “Molla Nəsrəddin” jurnalının nəşrə başlaması M.S.Ordubadinin yaradıcılığı və gələcək taleyi üçün mühüm rol oynayıb...



“Dünya Türk Ocaqları Mərkəzi”nin rəhbəri Aygün İbrahimova çıxışında qeyd etdi ki, təşkilat olaraq Türk dünyasının görkəmli ədiblərini tanıtmaq, yaradıcılığını təbliğ etmək məqsədlərimizdən biridir. Ordubadi də Azərbaycan xalqının tanınmış yazıçısıdır, onu gənc nəslə tanıtmaq və sevdirmək borcumuzdur.

AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Elmira Babayeva bildirdi ki, Ordubadi Cəlil Məmmədquluzadə realist ədəbi məktəbinin görkəmli nümayəndələrindən biri olub. O, Azərbaycan ədəbiyyatında tarixi romanın ilk yaradıcısıdır. Ədibin “Dumanlı Təbriz”, “Döyüşən şəhər”, “Gizli Bakı”, “Qılınc və qələm”, “Qanlı illər” və digər əsərləri, ötən əsrdə olduğu kimi, bu gün də oxucuların marağına səbəb olur.

Tədbirdə AMEA-nın N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayeva, Bülbülün Ev-Muzeyinin direktoru Fərqanə Cabbarova, C.Cabbarlının Ev-Muzeyinin direktoru Qəmər Seyfəddinqızı, Azərbaycan Dövlət Teatr Muzeyinin əməkdaşı Afət Abdullayeva və başqaları iştirak edirdi.

Sonda M.S.Ordubadinin Ev-Muzeyinin direktoru L.Abaszadə çıxış edərək tədbir iştirakçılarına təşəkkürünü bildirdi.

**S.Fərəcov**

# Şəhid məzunun fotosərgisi

Bakı Slavyan Universitetində (BSU) bu ali təhsil ocağının məzunu, 44 günlük Vətən müharibəsinin şəhidi Elnur Allahverdizadənin fotosərgisinin açılışı olub. Sərgidə şəhidin “street art” (“küçə sənəti”) janrında çəkdiyi müxtəlif süjetli fotoları nümayiş olunub.




Tədbiri giriş sözü ilə açan BSU-nun elmi işlər üzrə prorektoru, professor Rafiq Novruzov əbədiyyətə qovuşan şəhidlərimizin daim qəlblərdə yaşayacağını bildirib.

“Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri, şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Alızadə qeyd edib ki, şəhidlərimiz bütün dünyaya nümunə olacaq qəhrəmanlıq salnaməsi yazıblar.

Tədrisin təşkili şöbəsinin müdiri, Elnur Allahverdizadənin müəllimi olmuş Səbinə Tarıverdiyeva Elnurla bağlı xatirələrini bölüşərək, bir müəllim üçün öz tələbəsi haqqında keçmiş zamanda danışmağın ağır olduğunu dilə gətirib.

Şəhidin valideynləri tədbirin təşkilinə görə universitet rəhbərliyinə təşəkkür ediblər.

Qeyd edək ki, şəhid Elnur Allahverdizadə ölkə başçısının müvafiq sərəncamları ilə “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif edilib. O, 2016-cı ildə BSU-nun Tərcümə fakültəsini çex dili ixtisası üzrə bitirib.

# “Şuşa İli”ndə hansı elmi tədqiqatlar aparılacaq?

Aprelin 27-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Ümumi yığıncağında Humanitar Elmlər Bölməsinin 2021-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat dinlənilib.

Hesabatı təqdim edən AMEA-nın vitse-prezidenti, bölmənin Elmi şurasının sədri, akademik İsa Həbibbəyli “Nizami Gəncəvi İli”, Aşıq Ələsgərin 200 illik yubileyi, Şuşanın Azərbaycanın mədəniyyət paytaxt elan edilməsi ilə bağlı, eləcə də Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə dair aparılan elmi tədqiqat işləri barədə məlumat verib. Bildirib ki, Humanitar Elmlər Bölməsində tədqiqatlar “Azərbaycan ədəbiyyatının qaynaqları, təşəkkülü və inkişaf qanunauyğunluqları”, “Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları”, “Dilçiliyin və Azərbaycan dilinin inkişaf perspektivləri”, “Azərbaycan ədəbi və elmi-ictimai fikrinin bizə gəlib çatmış maddi nümunələrinin toplanması, sistemə salınması, kataloqlaşdırılması, qorunması, tədqiqi, nəşrə hazırlanması və təbliği”, “Azərbaycan mədəniyyətinin tarixi və onun çağdaş dünya bədii mədəniyyətində yeri” kimi istiqamətləri əhatə edib. Həmçinin “Azərbaycan xalq yaradıcılığının qaynaqları, təşəkkülü, inkişaf qanunauyğunluqları və əlaqələri”, “Azərbaycan ədəbiyyatına və mədəniyyətinə aid materialların toplanması, tədqiqi, elmi fondlarda qorunması, ekspozisiyada və sərgilərdə nümayiş etdirilməsi”, “Hüseyn Cavid və ümumiyyətlə, Cavidlər irsinin toplanması, qorunması, tədqiqi və təbliği” istiqamətləri üzrə tədqiqatlar aparılıb.

Akademik qeyd edib ki, 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında ölkə başçısının sərəncamından irəli gələrək Humanitar Elmlər Bölməsinin fəaliyyət proqramı hazırlanıb. Bu çərçivədə “Molla Pənah Vaqif. Həyatı və yaradıcılığı”, “Xurşidbanu Natəvan. Həyatı və yaradıcılığı” monoqrafiyalarının, “Böyük Qayıdışın şah əsəri – Şuşa” məqalələr toplusunun, “Şuşa – Elam və Troya dövründə”, “Qarabağ toponimləri” kitablarının çapı, beynəlxalq konfransların təşkili, Şuşanın ədəbi-sənətkar mühiti və görkəmli şəxsiyyətlərinə, sənətkarlarına həsr olunmuş tədqiqat işləri nəzərdə tutulur.

“Şuşa İli” çərçivəsində Şuşa şəhəri və ətrafına arxeoloji ekspedisiyaların təşkil edilməsinə və etnoqrafik tədqiqatların aparılmasına diqqətin artırılması, əlyazmalar, arxiv sənədləri və digər mənbələr əsasında “Şuşanın görkəmli şəxsiyyətləri” haqqında kollektiv monoqrafiyanın hazırlanması nəzərdə tutulur.

Bu barədə isə AMEA İctimai Elmlər Bölməsinin fəaliyyəti haqqında hesabatı təqdim edən akademiyanın vitse-prezidenti vəzifəsini icra edən, bölmənin Elmi şurasının sədri Gövhər Baxşəliyeva məlumat verib. Akademik Qarabağın və Zəngəzurun tarixi, arxeologiyası, iqtisadiyyatı, mədəniyyəti və s. istiqamətlərdə aparılan və nəzərdə tutulan tədqiqatlar barədə də danışıb.

# Venesiyada Səfəvi tarixinə dair kitab nəşr edilib

AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Əhməd Quliyevin “Səfəvilər Venesiya və Avropa mənbələrində” adlı monoqrafiyası ingilis dilində (“Safavids in Venetian and European Sources”) Venesiyadakı Ka Foskari Universitetinin nəşriyyatında çap olunub.

Kitab müəllifin Avropa Komissiyasının “Horizon-2020” Mariya Skladovskaya Küri təqaüd proqramı çərçivəsində Venesiyanın Ka Foskari Universitetində 2019-2021-ci illərdə həyata keçirdiyi “Şərqlə Qərb Venesiyada qarşılaşır: Səfəvilər və venesiyalılar arasında mədəni əlaqələr və qarşılıqlı təsirlər” layihəsinin nəticələri əsasında yazılıb.

Kitabda yerli arxiv materialları və dövrün digər mənbələri əsasında Səfəvilər dövlətinin o vaxtkı Venesiya Respublikası ilə diplomatik münasibətləri, bu münasibətlərdə Osmanlı amilinin rolu və digər məsələlər tədqiq edilib. Müəllifin Venesiya Dövlət Arxivində aşkar etdiyi I Şah Abbasın Venesiya doju Marino Qrimaniyə yazdığı məktubun italyan dilinə tərcüməsi nüsxəsi əsasında Şah Abbasın hakimiyyəti dövründə ilk Səfəvi elçiliyinin Venesiyaya indiyədək tarix kitablarında qeyd olunduğu kimi 1600-cı ildə (Sücəddin Əsəd bəyin başçılığı ilə) deyil, 1597-ci ildə (Xoca İlyas və Mehmet Emin bəyin başçılığı ilə) göndərildiyi məlum olub.

Arxiv materiallarının tədqiq edilməsi nəticəsində Venesiyada ticarətlə məşğul olmuş bir çox Səfəvi tacirlərinin adları da aşkar olunub. Kitabda Venesiya Dövlət Arxivinin fondlarında saxlanılan Səfəvi-Venesiya əlaqələrinə dair italyan dilində 13 əlyazma sənədinin müəllif tərəfindən transkripsiya olunmuş mətnləri də verilib.

# “Payızda gilənar dadı”

## Şair-folklorşünasın yeni kitabının təqdimatı keçirilib

Bakıdakı “Kitabevim.az” kitab mağazasında şair, folklorşünas, publisist, filologiya üzrə fəlsəfə doktoru Elxan Yurdoğlunun (Məmmədov) “Payızda gilənar dadı” şeirlər kitabının təqdimat və imza mərasimi keçirilib.

Tədbiri “Mədəniyyət” qəzetinin baş redaktor müavini Fariz Yunisli açaraq Elxan Yurdoğlunu yeni kitabı münasibətilə təbrik edib, yaradıcılıq uğurları arzulayıb. Müəllifin elmi və bədii yaradıcılığının bir-birini tamamladığını deyən F.Yunisli bildirib ki, “Payızda gilənar dadı” onun sayca 9-cu bədii kitabıdır. Elxan Yurdoğlunun bir çox şeirlərində xalq yaddaşından gələn elementlərin aydın sezilməsi onun folklor bilicisi olması ilə bağlıdır.



Naxçıvan Dövlət Universitetinin dosenti, ədəbiyyatşünas Seyfəddin Eyvazov, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşları Zəkulla Bayramlı, Fidan Nizaməddin, İbrahim Yusifoğlu, Gülnar Qəmbərova, Folklor İnstitutunun əməkdaşı İlhamə Qəsəbova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi İlkin Əsgər, sənətşünas Əsəd Quliyev, yazarlar Güllü Məmmədova, Allahverdi Aqil, Əkbər Qoşalı, Aləm Kəngərli, Arzu Nehrəmli, Sevda İbrahimli, Gülay Tahirli və başqaları çıxış edərək şairin yaradıcılıq məziyyətlərindən danışıb, təbriklərini çatdırıblar. Qeyd olunub ki, Elxan Yurdoğlu bədii və elmi fəaliyyətlə yanaşı, çağdaş ədəbi prosesi diqqətdə saxlayır, mətbuatda müntəzəm çıxış edir.

Vətən müharibəsi şəhidi Toğrul Hacıyevin qızı Ləman Hacıyeva şairin şəhidlərə həsr edilən şeirini səsləndirib.

Sonda Elxan Yurdoğlu təqdimat iştirakçılarına təşəkkürünü bildirib, kitabı qonaqlar üçün imzalayıb.

# “Cəhənnəm sakinləri”nin düşüncələr mozaikası

## Ölümü gözləmək ölümün özündən də qorxuludur...



Xalq yazıçısı Elçinin “Cəhənnəm sakinləri” pyesinin mövzusu ölkəmizdə 1937-ci ilin repressiya dönəmini əhatə edir. Pyes Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Xalq artisti Azər Paşa Nemətovun quruluşunda tamaşaya qoyulub...

Yeni ilin gəlişini qeyd etməyə hazırlaşan evli cütlük – Qadın (Xalq artisti Məleykə Əsədova) və Kişi (Əməkdar artist Elşən Rüstəmov) saatın əqrəblərinin gecə saat 12-nin üzərinə tuşlanmasını səbirsizliklə gözləyirlər. Onlar uzun illər ünsiyyətdə olduqları yaxınlarını, uzaqlarını, qonşularını, qohum-əqrəbalarını, doğmalarını, tanışlarını və heç bir günahı olmayan yüz minlərcə talesiz insanı azğın külək kimi sovurub aparan amansız 1937-ci ilin bu dəqiqədən etibarən tarixin ən qanlı səhifələrindən biri kimi yaddaş salnaməsinə qovuşacağı anı gözləyirlər.

Amma tamaşaçının nəzərdiqqəti istər-istəməz tamamilə başqa bir məcraya – bir neçə ailəni zor-bəla ilə özündə yerləşdirə biləcək dar mənzildə az qala bir-birinə sığınaraq daldalanan və anbaan “ölüm küləyi”nin əsməsini qorxu və təlaş içində gözləyənlərə yönəlir. “Ölümü gözləmək ölümün özündən də qorxuludur” fikri ilə yaşayan sakinlər üçün ilin bitməsini gözləmək ölümdən qurtulmaq anlamındadır. Sakinlərdən fərqli olaraq bir cütlüyün nisbətən əmin-amanlığı və salamatlıq ab-havasında yaşaması, başlıcası da NKVD-nin “qoxu bilən”, ayıq-sayıq nəzarətçilərinin özəl himayədarlığına arxayınçılıq faktına yönəlir. Görəsən onların (cütlüyün) belə bir imtiyaz qazanmasına səbəb olan nədir? Onlar nə etmişlər ki, qapı qonşuları ilə müqayisədə nisbətən daha rahat, daha xatircəmlik ab-havasında nəfəs alıb, bu yaşamın dadını çıxarmağa qadir olublar?

Bu suala pyesin müəllifi Elçinin, eyni zamanda tamaşanın müəllifi Azər Paşa Nemətovun bəyan etdiyi əsas fikirdən yola çıxaraq cavab vermək mümkündür: mövcud olmaq və siyasi repressiyaya məhkum edilməmək uğrunda ölüm-dirim savaşında öz canını qurtarmaq üçün illərlə hökm sürən puç, aldadıcı ideologiyaya tapınaraq yaxınlarını bada verən və çıxış yolunu sağ qalmaq naminə qonum-qonşusunu, yaxın əqrəbalarını, duz-çörək kəsdiyi insanları dar ağacına sürükləyənlərin və onları yaradan mövcud quruluşun (1937) tənqididir bu tamaşa!...

Bu qorxunc və səksəkəli dönəmlərdə öz şəxsi həyatı naminə dost və tanışlarını gedər-gəlməzə göndərən, “dahi rəhbərə” inamla, can-dildən xidmət göstərən kimsələr özlərinin toxunulmazlığına qəti əmin idilər. A.Nemətovun quruluşunda pyesin əsas qəhrəmanları – Kişi və Qadın məhz bu kontekstdən sərgilənmişdir: onların hər ikisi bir-birindən xəbərsiz olaraq NKVD-yə məxfi şəkildə casusluq edən çuğulçulardır. Bu agentlərin üzdəniraq fəaliyyəti nəticəsində hər gün və hər an iş yoldaşlarından, ya qapı qonşularından biri repressiyaya əjdahanın ağzına göndərilir...

Rejissor bu səhnəni səs effektləri vasitəsilə özünəməxsus ustalıqla çözür: yaxınlaşmaqda olan avtomobil mühərrikinin və əyləcin səsi, avtomobil qapılarının çırpılması, əsgər ayaqqabılarının tıqqıltısı, zəng səsi. Səslər bir-birinə qarışır və bu qarışıqlıqda birdən-birə kandarda buz sifətli heykəl kimi NKVD qəssabları peyda olur...

Tamaşada hadisələrin gedişatında əsas yükü Qonaq obrazı daşıyır. Xalq artisti Nurəddin Mehdixanlının ifa etdiyi bu obraz eyni zamanda həmin dönəmin ab-havasını, mühitini, şəraitini, dəhşət dolu anlarını sərgiləyən İblisdir. Ərlə arvadın qapıbir qonşularını bir-bir “dənləyərək” gedər-gəlməzə göndərən və sonradan hər ikisinin tək qalaraq biri-birilərini məhşər ayağına çəkdikləri və biri-birinə nələr törətdiklərinin hesabatını verdikləri an peyda olan İblis–Vicdan. Vicdanları çoxdan iflic olmuş ərlə arvadı onların mənəviyyatlarında ikinci “mən”ləri olan Vicdandan daha çox yalnız xarakterlərindəki İblis mühakimə edə bilər və edir də...

N.Mehdixanlının performansındakı Qonaq obrazı müəyyən mənada mücərrəd İblisdir. Amma daha dəqiq və dürüst anlamda isə Qonaq-İblis məfhumu insana məxsus mənfilikləri, xəyanətləri, xainliyi, bir sözlə, iblisləşməni ifşa etmək üçündür. Bayram süfrəsi arxasında birdən-birə, gözlənilmədən Qonağın (İblisin) peyda olması hadisələrin sonrakı axarını daha da gərginləşdirməklə tamaşaçıların diqqətini daha çox məşğul etməyə başlayır və istər-istəməz düşüncə tərzini bir növ tətikləyir: süfrə arxasında öz evindəki kimi rahat davranışı ilə mənzil sahiblərinin kefinə “soğan doğrayan” bu məxluq kimdir? Qonaqdır, casusdur, NKVD zabitidir, yoxsa ərlə-arvadın çoxdan bəri yox olmuş, buxarlanmış vicdanı?...

Beləliklə, səhnədə ölümə məhkum olunmuş sadə və sıradan olan iki insan – son dərəcə “pak” görünən, əslində isə iblis xislətli ər-arvad və onların indiyə qədər törətdikləri, mənəvi-əxlaqi davranışları, bəlkə də cinayətləri ilə İblisin əməlləri qarşı-qarşıya qoyulur. İblis günahkarları məhşər ayağına çəkərək bir ittihamçı kimi müttəhim kürsüsündə çox cılız görünən bu insancığazların iç üzlərini açır. Saatın əqrəblərinin gecə saat 12-ni göstərdiyi andan etibarən ərlə arvad çağırılmamış bu əcaib qonağı öldürmək qərarına gəlirlər və belə güman edirlər ki, başlarının üzərini almış bu təhlükəni məhz bu yolla sovuşdurub qorxunc və vahiməli 1937-ci ilin pəncəsindən bu minvalla qurtula bilərlər.

Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, yer üzündə insanın şər hissləri nə qədər əbədidirsə və bu şər əməllər nə qədər ki siyasi repressiyalar törədirsə, İblisin də mövcud olması bir o qədər qaçılmazdır. İblis obrazı insana məxsus xəyanətləri, bir sözlə, iblisləşməni açıb ifşa etmək üçündür. Mövcudluq uğrunda mübarizədə boş, mənasız, aldadıcı nəfsə az qala sitayiş edən, çox zaman isə çaşan, çıxış yolunu tapa bilməyən, xəyanətə, zorakılığa, vəhşi ehtirasa kölə olan insanı faciəli duruma salan həmin dönəmin ictimai-siyasi səbəblərini göstərmək tamaşanın başlıca qayəsidir.

Qapılar sanki canlanıb dilə gəlir, iştirakçı aktyorlarla səhnə mizanlarını bərabər şəkildə paylaşırlar.

Beləcə, hər iki qarşı tərəfin marağı bu konflikt faktında uzlaşır. Rejissor qapının açılıb-bağlanmasını tamaşanın konflikt faktına çevrilməsinə xüsusi diqqət yetirir. Bununla o, uzun illər çözümü hələ də araşdırılan suala cavab almaq istəyir: nədən bu qapılar hər zaman qapalı qalmalı, nədən insanlar qorxu hissindən qurtulmaq üçün onların qapalı qalmasını istəyirlər. Əcəba, bu qapılar xoş bir niyyət, pak bir məramla, xeyirxahlığı, insanseverliyi, qardaşlığı, əmin-amanlığı müdafiə edən fikirlər, düşüncələr məqsədilə açıla bilməzmi?...

Azər Paşa Nemətov, beləcə, səhnədə quraşdırmış olduğu qapıları bədii obraz səviyyəsinə qaldırmaqla onların tamaşanın əsas ideya istiqamətində tutduğu yeri açıqlamağa çalışır.

Tamaşa maraqlı bir sonluqla bitir. Qonşuları və iş yoldaşlarını fələyin hökmünə buraxdıqdan və ortalıqda ins-cins qalmadıqdan sonra ərlə arvad biri-birilərini törətdikləri əməllər üstündə mühakimə edirlər. İndi onlar artıq meydanda özlərİ qalmışlar. Bəs onları mühakimə edəcək bir kimsə yoxmu?... Neçə-neçə insanı məhbəsə, sürgünə, cəllad kötüyünə sürükləyən bu iki məxluq cəzasızmı qalacaq?..



Rejissor pyes müəllifinin fikrindən yola çıxaraq maraqlı bir aktyor ansamblı yaratmış, ümumiyyətlə, tamaşanın müəllifi kimi onun plastik həllinin, kompozisiya bütövlüyünün və bədii obrazının ərsəyə gəlməsində nəzərəçarpacaq dərəcədə maraqlı axtarışlar aparmışdır.

Səhnənin dairəsində bir müstəvidə qoyulan qapılar səhnə hərləndikcə pərən-pərən olaraq birdən-birə altı qapıya çevrilir. Müəyyən məsafə ilə yanaşı qoyulmuş bu qapılar sanki məzarlığı xatırladır. Bu da təsadüfi deyil, çünki bu qapılar ərlə-arvadın az sonra çuğulluğu nəticəsində repressiyaya məhkum olunacaq qonşuların üzlərinə birdəfəlik bağlanacaq ölüm qapılarıdır. Buradakı qapılar cansız bir nəsnə olduqları üçün, təbii ki, heç bir hadisə özəlliyi və anlamı daşımır. Amma zaman-zaman açılıb-qapanması onların bir konflikt faktına və kolliziya ünsürünə çevrilməsinə imkan yaradır. Çünki bu qapıların açılması sayəsində biz tamaşaçılar ər və arvadın, eləcə də qonşuların iç dünyasının, problemlərinin dərinliklərinə baş vururuq. Səksəkə və təlaşla yaşayan qonşular amansız repressiyalara məruz qalmasınlar deyə, bu qapıların açılmasını istəmirlər. Ər və arvad da qapıların açılmasından narahatdırlar. Onları sakitləşdirən bir-birindən xəbərsiz olaraq NKVD ilə olan əlaqələridir.

Bu sualın cavabı özünü çox da gözlətmir. Budur, bizə tanış olan həmin səslər eşidilir. Avtomobil səsi... Qapının çırpılması... Ayaq tappıltısı... Və nəhayət, qapı zənginin çalınması bir-birinə qarışır... Qapıda isə bizə yaxşı tanış olan Qonaq-İblis dayanmışdır.

Budur, haqq-hesab zamanı gəlmişdir. Qıl körpüsündən keçmə zamanı yetişmişdir. İblis bütün yaxınlarına, dostlarına, tanışlarına, qohum-əqrabalarına, qonşularına iftira ataraq ləkələyən, şərləyərək ölüm ayağına göndərən bu iki canini müttəhim kürsüsünə çəkərək ittiham edir və son hökmü oxuyur: “Cəhənnəmə xoş gəldiniz! Cəhənnəmə qədər yolunuz var...”.

Tamaşanın final səhnəsində pərdə qapandığı an İblisin NKVD zabitinin qiyafətində səhnə önünə yaxınlaşaraq şəhadət barmağını dodaqlarının üzərinə qoyub, tamaşaçılara müraciətlə “Susun!” deyə işarət verməsi mizanı da rəmzi bir məna daşıyır və tamaşanın baş hadisəsini bəyan edir: “Sabahı bəlli olmayan bir cəmiyyətdə həyatda qalmaq istəyirsənsə, dilini farağat qoyub, susacaq və deyilənlərə əməl edəcəksən. Əks təqdirdə günlərin birində cəhənnəmin qapıları üzünə taybatay açılacaqdır...”.

**Xəzər Gəncəli**
**Əməkdar artist, rejissor**

## Xatirə təqvimi — 29 aprel – 3 may

### Azərbaycan

**29 aprel 1916** – Cəlil Məmmədquluzadənin “Ölülər” tragikomediyası ilk dəfə “Nicat” teatr truppası tərəfindən Tağıyev teatrında tamaşaya (quruluşçu rejissor Hüseynqulu Sarabski) qoyulub.

**29 aprel 1919** – Kinorejissor, SSRİ Xalq artisti, Azərbaycanın və Türkmənistanın Əməkdar incəsənət xadimi Əjdər Mütəllim oğlu İbrahimov (1919 – 20.9.1993) anadan olub. “Bakı” Kinostudiyasında, “Mosfilm”də işləyib. “Onun böyük ürəyi”, “Ulduzlar sönmür”, “Məhəbbətim mənim, kədərim mənim” və s. filmlərə quruluş verib.

**29 aprel 1941** – Azərbaycan KP MK Bürosunun iclasında Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinin keçirilməsi haqqında qərar (yubiley mərasimi 1941-ci il 16 oktyabr tarixinə təyin olunmuşdu) qəbul edilib.

**30 aprel 1880** – Xalq rəssamı Əzim Aslan oğlu Əzimzadə (1880 – 15.6.1943) Bakının Novxanı kəndində doğulub. 1906-cı ildən əsərləri “Molla Nəsrəddin” jurnalında dərc olunub. Milli təsviri sənətdə karikatura janrının, kitab qrafikası sənətinin (M.Ə.Sabirin “Hophopnamə” kitabına illüstrasiyalar, 1914) banisi sayılır.

**30 aprel 1920** – Əməkdar mədəniyyət işçisi, tarzən Kamil Əlisəftər oğlu Əhmədov (1920–1996) Bakıda anadan olub.

**30 aprel 1937** – Azərbaycan Dövlət Opera və Balet Teatrında dahi bəstəkar Üzeyir Hacıbəylinin “Koroğlu” operasının (librettonun müəllifləri Q.İsmayılov və M.S.Ordubadi) ilk tamaşası nümayiş olunub. Koroğlu rolunu SSRİ Xalq artisti Bülbül ifa edib.

**30 aprel 1946** – Əməkdar artist Xanlar Yunis oğlu Muradov (1946 – 5.2.2005) Bakının Qobu qəsəbəsində doğulub. Sumqayıt Musiqili Dram, Musiqili Komediya teatrlarında çalışıb, filmlərə çəkilib.

**1 may 1901** – Aşıq Bəhmən Göyçəli (Bəhmən İbrahim oğlu Qarayev; 1901-1976) anadan olub.

**1 may 1910** – Xalq artisti, müğənni Süreyya Sədrəddin qızı Qacar (1910-1992) Şuşada doğulub. Operalarda (“Leyli və Məcnun”, “Aşıq Qərib” və s.) əsas partiyalarda çıxış edib.

**1 may 1928** – Əməkdar rəssam Tələt Ağalar oğlu Şıxəliyev (1928-1987) Masallı rayonunun Digah kəndində anadan olub. Yaradıcılığında portret janrı üstünlük təşkil edir.

**1 may 1934** – Yazıçı, dramaturq İsi Abbas oğlu Məlikzadə (1934 – 12.5.1995) Ağcabədi rayonunda anadan olub. Əsərləri və ssenariləri əsasında filmlər (“Qoca palıdın nağılı”, “Kişi sözü”, “Küçələrə su səpmişəm” və s.) çəkilib.

**1 may 1936** – Görkəmli dilçi alim, akademik Tofiq İsmayıl oğlu Hacıyev (1936 – 27.11.2015) Cəbrayıl rayonunun Soltanlı kəndində doğulub. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru olub.

**1 may 1941** – Xalq rəssamı Mayis Əlişir oğlu Ağabəyov (1941 – 17.6.2020) Bakıda anadan olub. 20-dən çox filmin quruluşçu rəssamıdır: “Babək”, “Nizami”, “Qətl günü”, “Özgə vaxt” və s. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professorudur.

**1 may 1947** – Bəstəkar, Əməkdar incəsənət xadimi Rauf Tofiq oğlu Əliyev (1947 – 14.6.2017) Şuşada anadan olub. Simfonik, instrumental və kamera əsərləri, filmlərə (“Yalan”, “Fəryad”) musiqi yazıb.

**1 may 1950** – Görkəmli yazıçı, dramaturq, publisist Məmməd Səid Ordubadi (24.3.1872 – 1950) vəfat edib.

**2 may 1913** – Əməkdar artist Məmməd Əhməd oğlu Sadıqov (1913 – 28.5.1987) Bakıda doğulub. Akademik Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**2 may 1916** – Əməkdar artist Ətayə Qulam qızı Əliyeva (1916 – 6.4.1995) Aşqabadda anadan olub. 1934-cü ildə Bakıya gələrək Teatr Texnikumuna daxil olub. İrəvan, Gəncə teatrlarında, Akademik Dram Teatrında çıxış edib. Çəkildiyi filmlər: “Onu bağışlamaq olarmı?”, “Bizim küçə” və s.

**2 may 1916** – Əməkdar artist Mənsurə Vahab qızı Cəfərova (1916 – 20.3.1997) Bakıda doğulub. Gəncə Dövlət Dram Teatrının aktrisası olub.

**2 may 1927** – Azərbaycanın ilk peşəkar hərbi dirijoru, sənətşünaslıq namizədi Niyazi Əhməd oğlu Kərimov (1927-2003) Qəbələ şəhərində anadan olub.

**2 may 1929** – Dilçi və ədəbiyyatşünas, Əməkdar elm xadimi Yusif Mirəhməd oğlu Seyidov (1929-2013) Naxçıvan MR Şərur rayonunun Yengicə kəndində anadan olub.

**2 may 1939** – Xalq artisti, sənətşünaslıq doktoru, professor Ramiz Fərzulla oğlu Zöhrabov (1939 – 24.4.2017) Bakıda doğulub. Muğamların tarixi və nəzəri problemlərinə dair kitabların müəllifidir. Bəstəkarlar İttifaqının katibi olub.

**3 may 1857** – Yazıçı, tərcüməçi, teatrşünas Əsgər ağa Haqverdi bəy oğlu Gorani (Adıgözəlov; 1857-1910) Goranboy rayonunun Goran-Boyəhmədli kəndində doğulub. 1873-cü il martın 10-da milli peşəkar teatrın əsasını qoyan “Lənkəran xanının vəziri” tamaşasında baş rolu (Teymur ağa) oynayıb. “Qara yel” romanının müəllifidir.

**3 may 1938** – Xalq artisti Kamal Ağahüseyn oğlu Xudaverdiyev (1938 – 23.4.2008) Bakıda doğulub. Akademik Dram Teatrında çalışıb. “Atayevlər ailəsi”, “Alov” teletamaşalarında, “Dağlarda döyüş”, “Nəsimi” və s. filmlərdə yaddaqalan rollar oynayıb.

**3 may 1940** – Xalq artisti, rejissor Zülfüqar Qulu oğlu Abbasov (1940 – 1.4.2022) Gürcüstanda, Borçalı bölgəsinin Yuxarı Saral kəndində doğulub. Qazax Dram Teatrında işləyib, Mingəçevir Dram Teatrının baş rejissoru və direktoru olub.

### Dünya

**29 aprel 1727** – Fransız baletmeysteri, müasir dünya baletinin nəzəriyyəçisi Jan-Jorje Nover (Jean-Georges Noverre; 1727–1810) anadan olub. Onun xatirəsinə ehtiram olaraq 29 aprel Beynəlxalq Rəqs Günü kimi (1982-ci ildə UNESCO-nun Beynəlxalq Rəqs Şurası tərəfindən təsis edilib) qeyd olunur.

**29 aprel 1842** – Avstriya bəstəkarı, Vyana klassik operettasının banisi Karl Milleker (Karl Joseph Millöcker; 1842-1899) anadan olub. Əsərləri: “Kasıb tələbə”, “Üç cüt ayaqqabı”, “Qrafinya Dübarri”.

**29 aprel 1907** – Amerika rejissoru, 4 dəfə “Oskar” mükafatçısı Fred Sinneman (Fred Zinnemann; 1907-1997) anadan olub.

**30 aprel 1870** – Avstriya-macar bəstəkarı və dirijoru Frans (Franz) Lehar (1870-1948) anadan olub. “Şən dul qadın”, “Qaraçı məhəbbəti”, “Torağaylar oxuyan yerdə” operettalarının müəllifidir.

**30 aprel 1883** – Çex satirik yazıçısı və dramaturqu Yaroslav Haşek (1883-1923) anadan olub. “Əsgər Şveykin sərgüzəştləri” romanı ilə məşhurlaşıb. “Əcnəbilər üçün gid”, “Mənim it alverim” hekayələr toplusunun müəllifidir.

**1 may 1881** – Fransız filosofu, antropoloq və paleontoloq Teyar de Şarden (Pierre Teilhard de Chardin; 1881-1955) anadan olub. Əsərləri: “Bəşəri mühit”, “İnsan fenomeni”.

**1 may 1924** – Rus yazıçısı Viktor Astafyev (1924-2001) anadan olub. Əsərləri: “Çar-balıq”, “Qəmli detektiv”, “Lənətlənmiş və öldürülmüşlər” və s.

**1 may 1924** – Gürcü aktyoru və rejissoru David Abaşidze (1924-1990) anadan olub. Filmləri: “Qəm yemə”, “Pirosmani”, “Veri məhəlləsinin melodiyası”.

**2 may 1903** – Özbək kinosunun yaradıcılarından biri, SSRİ Xalq artisti Kamil Yarmatov (1903-1959) anadan olub. “Əlişir Nəvai”, “İbn Sina” filmlərinə quruluş verib.

**2 may 1911** – Tacikistanın Xalq şairi Mirzo Tursunzadə (1911-1977) anadan olub. Əsərlərini tacik və rus dillərində yazıb.

**3 may 1910** – Rus şairi, yazıçı Olqa Berqols (1910-1975) anadan olub. 1941-1945-ci illər müharibəsində blokadada qalan Leninqradda fədakar yaradıcılıqla məşğul olub, “Leninqrad poeması”nı yazıb.

**Hazırladı: Vüqar Orxan**

# Strasburq Universitetində Nizami Gəncəvi haqqında konfrans

Fransanın Strasburq Universitetində "Nizami Gəncəvi və Azərbaycan ədəbiyyatı" mövzusunda elmi-praktik konfrans keçirilib. Strasburq Universiteti Türk Araşdırmaları Departmentinin təşkilatçılığı və Azərbaycanın Avropa Şurası (AŞPA) yanında Daimi nümayəndəliyinin dəstəyi ilə gerçəkləşən konfransda akademik Rafael Hüseynov "Nizami Gəncəvinin Azərbaycan və dünya ədəbi-mədəni fikrində yeri" adlı məruzə ilə çıxış edib.



Akademik qeyd edib ki, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin şəxsiyyətinə və irsinə bütün dünyada maraq getdikcə artmaqdadır. Azərbaycan Prezidentinin sərəncamı ilə 2021-ci ilin "Nizami İli" elan edilməsi nizamişünaslıqda yeni inkişaf mərhələsinə təkan verib. Nizami Gəncəvi ilə bağlı müxtəlif dillərdə işıq üzü görən yeni nəşrlər, dünyanın müxtəlif ölkələrində təşkil edilən konfrans və simpoziumlar da bunun əyani göstəricisidir.

Rafael Hüseynov deyib: "Orta əsrlərdən dövrümüzə qədər təртib edilmiş və sayı səkkiz yüzü aşan fars və türkdilli təzkirələrə ümumi baxış onu göstərir ki, klassik ədəbiyyatla bağlı məlumatlarımızın başlıca, ayrı-ayrı şəxsiyyətlərə münasibətdə isə bəzən yeganə qaynağı olan bu toplularda adı ən çox və sabit olaraq təkrarlanan şair Nizami Gəncəvidir...".

Akademik bildirib ki, Orta əsrlərdə Nizamiyə nəzirə yazmaq sanballı şairlər zümrəsinə qatıla bilmək üçün imtahan sayılırdı və bu yoxlamadan uğurla keçənlər böyük ədəbiyyata vəsiqə qazanmış kimi olurdular.

Hələ şairin sağlığında əsərlərinin sərhədlər aşdığını, o dövrkü müsəlman Şərqi mədəni mühitinin diqqət mərkəzində dayandığını bildirən akademik qeyd edib ki, Nizami Gəncəvi milli şair olmaqla yanaşı, bütöv regionun, dövrünün mədəni aləminin ortaq şairi olmaq vəzifəsini də öhdəsinə götürmüşdü. Çünki lap əvvəldən Nizami mövzu dairəsi, qəhrəmanları, düşüncə və ifadəsinin tərzi ilə bəşəriyyətə üz tutan bir mütəfəkkir kimi çıxış edirdi. O, yalnız öz xalqı və mədəniyyəti üçün deyil, bütün Yaxın və Orta Şərqi, hətta daha geniş götürsək, bütün mədəni aləmə əbədi düşüncə və cəmiyyət quruculuğunun yeni mükəmməl modellərini təklif edirdi.

Nizami təsirinin hüdudlarından bəhs edən Rafael Hüseynov fransız yazıçısı və ictimai xadim Lui Araqonun Parisdə 1962-ci ildə nəşr etdirdiyi kitabındakı fikirlərə istinad edərək bildirib ki, gəncəli müdrikə yazılan nəzirə əsərlər latın və yunan dillərində olan bütün poemaların sayından çoxdur.

Mühazirədən sonra Rafael Hüseynov Strasburq Universitetinin müəllim və tələbələrinin çoxsaylı suallarını cavablandırıb. Universitetin professorları Stefan de Tapia, Samim Akgönül məruzə və müzakirələrə bağlı məmnun olduqlarını bildiriblər. Konfrans iştirakçılarına Heydər Əliyev Fondunun dəstəyi ilə fransızca nəşr edilmiş Nizami əsərləri, şair haqqında kitab və bukletlər təqdim edilib.

# Yaponiyada azərbaycanlı bəstəkarların əsərləri təqdim edilib



Yokohama şəhərində Yaponiya ilə Azərbaycan arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinə həsr olunmuş qala-konsert keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, komitənin dəstəyi və bu ölkədə yaşayan azərbaycanlı musiqiçi Gülnarə Azuma-Səfərovanın təşkilatçılığı ilə baş tutan konsertdə yapon musiqiçiləri Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və Arif Məlikovun əsərlərini ifa ediblər.

Tədbir çərçivəsində bəstəkar Qara Qarayevin not kitablarının təqdimat mərasimi də təşkil edilib. Yaponiyanın "ZEN-ON" musiqi nəşriyyatı ilə bəstəkarın oğlu Fərəc Qarayev arasında bağlanmış müqaviləyə əsasən, 2022-ci ilin aprelində Qara Qarayevin əsərlərinin çapına başlanılıb.

# Ölkəmiz Qırğızıstanda musiqi və rəqs konqresində təmsil olunub

20-25 aprel tarixində Qırğızıstanda keçirilən ənənəvi musiqi həftəsi və IX Beynəlxalq Musiqi və Rəqs Konqresində ölkəmiz də təmsil olunub. Bakı Xoreoqrafiya Akademiyasının (BXA) nümayəndə heyəti konqresdə iştirak edib.

Tədbirə Türkiyə, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Hindistan, Rusiya, İtaliya, Böyük Britaniya, Almaniya, Macarıstan və digər ölkələrdən nümayəndələr də qatılıb.

BXA-nın elm və yaradıcılıq işləri üzrə prorektoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Elmira Pənahova, orta ixtisas təhsil pilləsinin direktoru, rəqqas-xoreoqraf Tahir Eynullayev, elmi katib, sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Məmmədovadan ibarət heyət Bişkek Xoreoqrafiya Akademiyasında tədris prosesi ilə yaxından tanış olub. İki akademiya arasında gələcək əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb.

Sonra Tahir Eynullayev Türkiyə nümayəndəsi, konqresin rəhbəri Kurşad Gülbeyaz ilə birlikdə Bişkek Xoreoqrafiya Akademiyasının tələbələrinə ustad dərsləri keçib. O, tələbələrə BXA-nın fəaliyyəti haqqında da məlumat verib.

Növbəti gün Tahir Eynullayev Qırğızıstan Dövlət Mərkəzi Kitabxanasının zalında Azərbaycanın xalq rəqsi "Yallı" barədə məlumat verib, qırğız tələbələrə bu rəqslə bağlı ustad dərsi keçib. Ustad dərsinə konqresə qatılan müxtəlif ölkələrin nümayəndələri də qoşulublar.



BXA-nın nümayəndə heyəti konqresdə aktiv iştirakına görə sertifikatla təltif olunub. Bişkek Xoreoqrafiya Akademiyası tərəfindən BXA-nın bədii rəhbəri, rektor vəzifəsini müvəqqəti icra edən, Əməkdar artist Nailə Məmmədzadəyə təşəkkür məktubu da göndərilib.

Qeyd edək ki, Qırğızıstanda IX Beynəlxalq Musiqi və Rəqs Konqresi çərçivəsində müxtəlif ölkələrdən nümayəndələrin iştirakı ilə "Melodiya günü", "Epos günü" kimi tematik məşğələ və ustad dərsləri təşkil olunub. Həftə ərzində T.Abdumomunov adına Qırğızıstan Milli Akademik Dram Teatrında "Qorqud-Ata" tamaşası göstərilib, sərgi-yarmarka keçirilib.

əvvəli səh. 1-də

# Paytaxtımızda əsl təbiət zövqü

## Dahi şairin adını daşıyan park gözəl istirahət ünvanıdır

Öncə qeyd edək ki, XIX əsrin sonlarında Nobel qardaşları tərəfindən salınmış parkın müstəqillik dövrünə qədər müxtəlif adları olub. 1991-ci ildən isə park dahi Azərbaycan şair və mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyır.

Hələ 2019-cu ilin noyabr ayında reportaj hazırlamaq məqsədilə park ərazisində yerləşən Nobellərin Ev-Muzeyinə gəlmişdim. O zaman ərazini park adlandırmaq belə çətin idi. 1922-ci ildə rəsmi park statusu alan və bir vaxtlar "Luna Park" adı ilə məşhur olan ərazi uzun illər baxımsız qalmışdı. Ətraf ərazilərdə yaşayan sakinlərin səvimli istirahət məkanı olan parkda əsaslı yenidənqurmaya zərurət yaranmışdı. Bu məsələ Prezident İlham Əliyevin 2021-ci il 19 aprel tarixli sərəncamı ilə həllini tapdı. Sərəncamdan sonra parkda yenidənqurma işləri aparıldı. Dekabrın 30-da parkın əsaslı təmir və yenidənqurmadan sonra açılışı oldu. Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış oldular. Böyük Nizami Gəncəvinin adı ilə şərəflənən 2021-ci ilin sonunda park sakinlərin istifadəsinə verildi.





Parkın ərazisində diqqəti cəlb edən amfiteatr və 1938-ci ildən mövcud olan yay kinoteatrı da yenidən qurulub. Bu məkan həm də 1955-ci ildə lentə alınan "Bəxtiyar" filmindən maraqlı fraqmentləri yadımıza salır. Bəli, bu həmin kinoteatrdır ki, Hüseynova bacılarının çıxışı, həmçinin Rəşid Behbudovun məşhur "Üzüyümün qaşı firuzədəndir..." mahnısını ifa etdiyi hissə burada çəkilib.

Aparılan son təmir işləri zamanı yay kinoteatrının qarşısında çay daşlarından qədim tipli yeni qala divarı tikilib. Parkın ərazisindəki süni göl də ziyarətçilərin qəlbinə bir rahatlıq bəxş edir. Təxminən 6 min kvadratmetr sahəsi olan göl və gölün ətrafında qoyulan, amfiteatr təsiri bağışlayan kiçik oturacaqlar ərazidə istirahət üçün ən ideal yerlərdən biridir.

Burada həmçinin iki fəvvarə kompleksi və müasir tipli işıqlandırma sistemi yaradılıb. Parkda yaşıllaşdırma işi xüsusi zövqlə həyata keçirilib. Minlərlə ağac-kol və dekorativ bəzək bitkiləri əkilib. Bu da təbiət qoynunda kitab oxumağı sevən gənclər üçün gözəl fürsətdir.

Parkda təmir aparılarkən uşaqlar da unudulmayıb. Belə ki, parkın yuxarı hissəsində uşaqlar üçün əyləncə kompleksi, meydançalar yaradılıb, müxtəlif idman qurğuları yerləşdirilib. Meydançanın divarlarında həkk olunan Nizami Gəncəvinin əsərləri əsasında çəkilmiş rəsmlər isə məkana xüsusi gözəllik bəxş edir.

### Hər kəsin üzündə məmnunluq var...

Biz parka çox gözəl məqamda, təbiətin canlandığı bir vaxtda getmişdik. Sanki dağətəyi bir ərazidə meşəyə üz tutmuşduq. Xeyli sayda insan parkda istirahət edirdi. Ailəsi və yaxınları ilə istirahət edən kim, dostları ilə gəzən, yaşıllıqda oturaraq parkın gözəlliyini seyr edən kim...

Parkda yaradılan şəraitin həm balacaların, həm də böyüklərin ürəyincə olduğu aydın sezilirdi. İnsanların üzündə bir məmnunluq hiss olunurdu. Bu məmnuniyyəti dillərindən eşitmək üçün onlardan bəzilərinin təəssüratlarını öyrəndik. Sakinlər parkın yenidən təmir edilməsinə və ərazidə yaradılan belə gözəl şəraitə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya öz təşəkkürlərini bildirdilər.

Parkın ətrafında yaşayış binaları çoxluq təşkil edir. Sakinlər asudə vaxtlarında gəlib burada istirahət edir, onun gözəlliyindən zövq alırlar. Səhman Hüseynov parka yaxın ərazidə yaşayır. Parkın açılışından sonra fürsət tapdıqca bura gəlir: "Demək olar ki, hər gün parkda gəzirəm. Bu gün də oğlumla parkı gəzməyə gəlmişik. Burada yaradılan şəraiti çox bəyənirik. Ərazidə qurulan fəvvarə kompleksi parka xüsusi gözəllik verib. Parkın yenidən yaradılmasında əməyi olan hər kəsə təşəkkür edirəm".

Parkdakı şəraitə ən çox sevinən isə, şübhəsiz ki, uşaqlardır. Havalar isindiyindən buraya gələn uşaqların sayı da artıb. Məktəbli Nurlan parkı o qədər bəyənib ki, ərazidən ayrılmaq istəmir. Dərsdən sonra parka gələrək uşaqlar üçün ərazidə yaradılmış əyləncə kompleksi, oyun meydançalarında, doyunca istifadə edir.

Paytaxtın Xətai rayonunun Nobel prospektində yerləşən Nizami Gəncəvi parkı dincəlmək, asudə vaxtını səmərəli keçirmək üçün ideal məkanlardan biridir. Düşünməyin ki, təkcə uşaqlar bu məkana bağlanırlar, doğrusu, elə biz də parkdan ayrılmaq istəmirdik...

**Nurəddin Məmmədli**
**Foto: Həbib Hüseynov**





### Yenilikləri ilə gözoxşayan məkan

Bakının Xətai rayonunda 11,2 hektar ərazisi olan parkda paytaxt sakinləri və şəhərimizin qonaqlarının maraqlı istirahəti üçün hər cür şərait yaradılıb.

Şəhərin estetik görünüşünə uyğunlaşdırılması məqsədilə parkın ərazisində yerləşən bir və iki mərtəbəli inzibati binalarda da əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 315 il əvvəl...

**1 may 1707-ci ildə** Şotlandiya ilə İngiltərənin birləşməsinə dair "İttifaq aktı" bağlanıb. İngiltərə XIII əsrdən Şotlandiyanı özünə birləşdirmək uğrunda müharibələr aparsa da, 4 əsr sonra buna nail ola bilmədi. Bu da XVII əsrdə İngiltərə taxt-tacında şotland əsilli Stüartların əyləşməsindən sonra mümkün olmuşdu.

### 233 il əvvəl...

**30 aprel 1789-cu ildə** ABŞ-da prezidentlik institutu fəaliyyətə başlayıb, 1-ci prezident Corc Vaşinqtonun inauqurasiya mərasimi keçirilib. O vaxt ABŞ-ın paytaxtı Nyu-York şəhəri idi və prezidentin iqamətgahı da burada yerləşirdi.

### 154 il əvvəl...

**2 may 1868-ci ildə** çar Rusiyasının işğalçı qoşunları Səmərqəndə daxil olublar. Bölgəyə nəzarət edən Buxara xanı Səmərqəndi Rusiyaya güzəştə getdi, indiki Özbəkistanın bir hissəsi Rusiya imperiyasına birləşdirildi.

### 133 il əvvəl...

**1 may 1889-cu ildə** Parisdə II İnternasionalın konqresində 1 mayın "Dünya zəhmətkeşlərinin həmrəyliyi günü" kimi qeyd olunması barədə qərar qəbul edilib. Qərar 1886-cı ilin mayında ABŞ-ın Çikaqo şəhərində 8 saatlıq iş günü tələbi ilə etiraz aksiyası keçirən və buna görə güllələnən edilən fəhlələrin xatirəsinə həsr olunmuşdu. İlk dəfə 1 may 1890-cı ildə ABŞ-da və Avropanın bir sıra ölkəsində, bir il sonra Rusiyada qeyd olunub.

### 122 il əvvəl...

**30 aprel 1900-cu ildə** ABŞ Havay adalarını işğal edib. Sakit okeandakı (Avstraliya yaxınlığında) Havay arxipelaqına 24 ada daxildir.

### 104 il əvvəl...

**29 aprel 1918-ci ildə** erməni-daşnak dəstələri Gümrü şəhəri yaxınlığında azərbaycanlı türklərə qarşı kütləvi qırğın törədiblər. Əksəriyyəti qadın və uşaqlar olmaqla yüzlərlə insan qətlə yetirilib.

**1 may 1918-ci ildə** "Bakı Komissarları Soveti"nin qoşunları Qubaya hücum ediblər. Daşnak Amazaspın başçılıq etdiyi dəstələr şəhərdə və ətraf kəndlərdə qırğınlara başlayıblar. Quba bölgəsində ümumilikdə 3 minədək insan qətlə yetirilmişdi.

### 77 il əvvəl...



**30 aprel 1945-ci ildə** İkinci Dünya müharibəsində alman faşizminə qarşı son döyüş – Reyxstaqa hücum başlayıb. Adolf Hitler bir gün öncə rəsmi nikaha girdiyi Yeva Braunla intihar edib və iflas etmiş Almaniyanın idarəçiliyini admiral Dyonisin başçılığı ilə müvəqqəti hökumətə vəsiyyət edib.

### 47 il əvvəl...

**30 aprel 1975-ci ildə** Cənubi Vyetnam Amerika işğalından qurtulub və ölkənin şimalı ilə birləşib. 1965-ci ildə ABŞ Cənubi Vyetnama hərbi kontingent yeritmişdi. 1973-cü ildə Amerika qoşunlarının Cənubi Vyetnamdan çıxarılması barədə Parisdə müqavilə imzaladı. 1975-ci ilin aprelində ABŞ-ın sonuncu hərbi dəstəsi Cənubi Vyetnamı tərk etdi. 30 aprel Vyetnamda dövlət bayramı – Qələbə Günü kimi qeyd olunur.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 1216
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641